DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 02 (364) / FEVRAL 2022-Cİ İL

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA AĞDAM CÜMƏ MƏSCİDİNDƏ BƏRPA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLUBLAR



Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişi ilə tanış olublar.

İşğaldan azad olunan ərazilərdə Heydər Əliyev Fondunun layihələrinin koordinatoru Sabiq Abdullayev dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verib.

Qeyd edək ki, Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Bu məscid Ağdamın işğal altında olduğu müddətdə şəhərdə ermənilər tərəfindən dağıntıya nisbətən az məruz qalan yeganə tikilidir.

Cümə məscidinin bərpa-restavrasiyasına Heydər Əliyev Fondu tərəfindən başlanılıb. Layihənin icrası üçün Avstriyanın "Brugger&KO Restauratoren GmbH" şirkəti ilə müqavilə imzalanıb.

Bildirildi ki, ilk addımda örtük və sement birləşmələri tamamilə çıxarılacaq. Tarixi kərpiclərin zədələnməməsi və kompozitin divardan qopmaması üçün işlər əl ilə aparılacaq. Bərpa prosesinin ikinci mərhələsində fasadlar biogen böyümədən təmizlənəcək, zədələnmiş və ya qırılmış kərpiclər bərpa ediləcək, karxana daşı hörgüsü əhəng əsaslı birləşmiş məhlul ilə yenidən işarələnəcək.

Məscidin bişmiş kərpicdən hörülmüş iki minarəsinə spiralvari pilləkənlə qalxmaq mümkündür. Birinci mərhələdə qırıq birləşmələr, kafel başları və mövcud rəng nümunələri çıxarılacaq, ikinci mərhələdə minarələrin kərpic hörgülərinin biogen artımının qarşısı alınacaq, üçüncü mərhələdə isə kərpic başları bərpa olunacaq. Daha sonra rəng nümunələri və yazı zolaqları tarixi xüsusiyyətlərə uyğun olaraq mineral rəngli materialla bərpa ediləcək.

Tarixi görüntülərdən də göründüyü kimi, məscid əvvəlcə taxta dam örtüyü ilə örtülüb, kərpic günbəzlər damın altında havadan və küləkdən qorunub. İlkin mərhələdə damın bütün landşaftı son biogen artımından azad ediləcək, qübbələr üzərində qırılan hörgü birləşmələri və gips örtükləri çıxarılacaq.

Konservasiya zamanı çatışmayan, zəifləmiş və ya qeyri-sabit hörgü və tonoz konstruksiyaları yenilənəcək və ya birləşdiriləcək.

Namaz zalında birinci mərhələdə əsas kərpicdən başqa bütün gips çıxarılacaq və sonrakı iş mərhələləri üçün hazırlanacaq. Bütün otaqlarda əhəng əsasında yeni, üçqatlı suvaq sistemi tətbiq ediləcək, son qatda ilk versiyaya (ağ rəngli) uyğun mineral boya tətbiq olunacaq.

Məscidin mehrabı hazırda qəzalı vəziyyətdədir. Müvafiq olaraq, məscidin bərpası zamanı təxminən 2 metr hündürlüyə qədər torpaq sahəsində duzsuzlaşdırma tədbirləri həyata keçiriləcək.

Bərpa işləri bütövlükdə tarixi görünüşə uyğun olaraq həyata keçiriləcək.

Görülən işlərlə tanışlıqdan sonra dövlətimizin başçısı çıxış edib.

davamı səh. 2

## DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ MÜBARİZ QURBANLI SUMQAYITDA VƏTƏNDAŞLARI QƏBUL EDƏCƏK

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı martın 4-də Sumqayıt şəhəri və Qubadlı rayonunun sakinlərini qəbul edəcək. Qəbul Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində (Sumqayıt şəhəri, Zülfü Hacıyev küç. 53) saat 10:00-da keçiriləcək. Qəbula gəlmək istəyən vətəndaşlardan Dövlət Komitəsinin Sumqayıt bölgəsi üzrə şöbəsinə müraciət etmələri xahiş olunur.

DQİDK-nın bölgə şöbə müdiri: Yalçın Abdullayev

**Əlaqə vasitələri:**
Mob: **(070) 275-88-33**
Telefon: **(018) 654 00 40**
E-mail: **dk-sumqayit@scwra.gov.az**

## DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ KOLLEGİYASININ İCLASI KEÇİRİLİB



Səh. 3-4

## YENİ QEYDİYYATDAN KEÇMİŞ DİNİ İCMALARA ŞƏHADƏTNAMƏLƏR TƏQDİM EDİLİB



Səh. 5

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA AĞDAM CÜMƏ MƏSCİDİNDƏ BƏRPA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLUBLAR

əvvəli səh. 1

**Prezident İlham Əliyevin çıxışı**

- Ağdam rayonunun bərpası ilə bağlı kompleks tədbirlərin görülməsi bizə imkan verəcək ki, qısa müddət ərzində Ağdamı yenidən quraq, yaradaq. Bu gün Ağdamın gələcək inkişafı ilə bağlı çox önəmli addımlar atılmışdır, bir neçə təməlqoyma mərasimi keçirilmişdir. Hesab edirəm ki, qısa müddət ərzində görülmüş işlər yaxın gələcəkdə konkret nəticələrə gətirib çıxaracaq.

Bu gün Ağdam şəhərində sənaye parkının ilk rezidentləri tərəfindən yaxın gələcəkdə istifadəyə veriləcək yeni müəssisələrin təməl daşı qoyuldu. Sənaye parkının təməl daşını mən keçən dəfə Ağdamda qoymuşdum, Müstəqillik Günündə qoymuşdum. Bu gün isə artıq ilk müəssisələrin təməli qoyuldu. Artıq 5 rezident vardır və onlar işə başlayırlar. Beləliklə, 190 hektar ərazidə qurulacaq Ağdam Sənaye Parkının ilk müəssisələri artıq bu sahədə ilk addımlarını atır. Bu, çox önəmli hadisədir. Ona görə ki, Ağdam şəhərinin gələcək inkişafı ilə bağlı planlarımızda, ilk növbədə, yaşayış binalarının inşası və iş yerlərinin açılması var. Çünki burada yaşayacaq ağdamlılar işlə təmin olunmalıdırlar. İş yerlərinin yaradılması ilə bağlı əlavə addımlar da atılacaq. Əminəm ki, yaxın gələcəkdə Ağdam Sənaye Parkında onlarla müəssisə işə başlayacaqdır. Azərbaycan iş adamlarına da mən bu gün burada – Ağdam Cümə məscidinin önündə çağırış edirəm ki, gəlsinlər həm Ağdama, həm də azad edilmiş bütün digər ərazilərə sərmayə qoysunlar, vəsait qoysunlar. Çünki bu gün Azərbaycanda biznes üçün, sahibkarlar üçün çox gözəl şərait yaradılıb. Dövlət sahibkarları dəstəkləyir və həm mənəvi-siyasi dəstək verilir, eyni zamanda, güzəştli kreditlər verilir. Əlbəttə ki, bölgələrdə infrastruktur layihələrinin icrası sahibkarlıq üçün də gözəl imkanlar yaradır. Ona görə Azərbaycan sahibkarları gərək azad edilmiş torpaqlara gəlsinlər və burada müəssisələr qursunlar, iş yerləri yaratsınlar. Biz azad edilmiş torpaqları ancaq bu yolla tezliklə canlandıra bilərik. Əlbəttə, dövlət öz tərəfindən lazımi addımları atır və atacaq. Ağdam şəhərinin Baş planı hazırlanıb, Baş plan əsasında işlər görülür. Əlbəttə ki, özəl sektorun nümayəndələri bu işlərdə fəal olmalıdırlar.

Bu gün, eyni zamanda, iki yarımstansiyanın açılışı olmuşdur. Beləliklə, azad edilmiş torpaqlarda yarımstansiyaların sayı 9-a çatıb. "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının fəaliyyəti nəticəsində bütün rayon elektrik enerjisi ilə dayanıqlı şəkildə təmin ediləcək. Bu gün Ağdamda mehmanxananın təməli qoyuldu. Müasir mehmanxana təqribən 2 ildən sonra fəaliyyətə başlayacaq. Buraya böyük sayda gələcək qonaqlara indi şərait yaradılır. Əlbəttə ki, bu gün qeyd etdiyimiz hadisələrdən biri də yaşayış kompleksinin təməl daşının qoyulmasıdır. Altı evdən ibarət yaşayış kompleksi təqribən il yarıma - iki ilə inşa ediləcək, bəlkə də ondan da tez və beləliklə, Ağdamın hərtərəfli inkişafı təmin olunacaq.

Bu gün, eyni zamanda, Ağdam Mərkəzi Şəhər Xəstəxanasının təməli qoyulur. Əlbəttə ki, 210 çarpayılıq xəstəxana ağdamlılara tibbi xidmətin göstərilməsi üçün imkanlar yaradacaq.

Keçən dəfə Ağdamda olarkən mən burada 1 nömrəli məktəbin təməlini qoydum. O məktəbdə təqribən minə yaxın şagird oxuyacaq. Yəni, bir daha demək istəyirəm, kompleks tədbirlər görülür – elektrik enerjisi ilə təchizat, Ağdama qaz xətlərinin çəkilişi layihəsi indi işlənilir, içməli suyun gətirilməsi, o cümlədən Xaçınçay su anbarının təmiri layihəsi builki İnvestisiya Proqramında vardır, yaşayış binaları, mehmanxana, iş yerləri. Yəni, bu, hərtərəfli inkişaf deməkdir. Elə bu gün açılışında və təməlqoyma mərasimində iştirak etdiyim obyektlərdə biz bu genişmiqyaslı işləri görə bilərik.



Bununla yanaşı, Ağdamın yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulur. Bərdə-Ağdam avtomobil yolu, dəmir yolu inşa edilir. Hesab edirəm ki, avtomobil yolu təqribən bir ilə hazır olacaq. Mənim göstərişimlə Füzuli-Ağdam avtomobil yolunun çəkilişi layihəsi artıq icra olunmağa başlamışdır. Bu yol həm Füzuli və Ağdam şəhərlərini birləşdirəcək, eyni zamanda, Ağdamı Füzuli Beynəlxalq Hava Limanı ilə birləşdirəcək və Ağdama başqa ölkələrdən gəlmək daha asan olacaq.

Bu işlər bir daha onu göstərir ki, biz vaxt itirmədən, tarixi Zəfərdən sonra vaxt itirmədən bu işlərə start vermişik, siyasi iradə ortaya qoymuşuq, bütün maliyyə və texniki imkanlarımızı, kadr potensialımızı səfərbər etmişik. Bütün bu işləri biz özümüz görürük, öz vəsaitimiz hesabına, büdcəmiz hesabına, heç kimdən yardım istəmədən, heç bir kredit almadan. Bunu Azərbaycan vətəndaşları edir. Əlbəttə ki, müxtəlif xarici şirkətlər artıq bu işlərdə fəal iştirak edirlər. Bu şirkətlərin sayı artmaqdadır. Mən çox şadam ki, həm yerli şirkətlər, həm xarici şirkətlər azad edilmiş torpaqlarda işləməyə can atırlar, maraq göstərirlər və biz bunu alqışlayırıq.

Qarşımızda böyük işlər vardır. Bu işləri maksimum səmərə ilə və keyfiyyətlə aparmaq üçün əlbəttə ki, düşünülmüş addımlar planı olmalıdır. Bütün şəhərlər Baş plan əsasında yenidən qurulacaq. Ağdamın, Füzulinin Baş planları təsdiq edilib. Ağdam və Füzuli rayonlarının ictimaiyyəti bu Baş planlarla tanış olub və öz müsbət rəyini verib. Hazırda yerli və xarici şirkətlər tərəfindən digər şəhərlərin Baş planları işlənilir. Onlar hazır olan kimi biz artıq praktiki işlərə başlayacağıq.

Görülmüş bütün bu işlərlə yanaşı, əlbəttə ki, biz tarixi, dini abidələrimizi də bərpa edirik. Mənə bu gün verilən məlumata görə, Ağdam Cümə məscidinin bərpa işlərinə başlanılır. Artıq bütün tədqiqatlar aparılıb və mart ayından başlayaraq məscidin həm daxilində, həm çöl hissəsində təmir-bərpa işlərinə start veriləcək. Azad edilmiş torpaqlarda hazırda 8 məscidin əsaslı təmiri, bərpası və tikintisi nəzərdə tutulub. Bütün bu istiqamətlər üzrə işlər gedir. Ağdam Cümə məscidi, Şuşada Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidləri əsaslı təmir edilir. Şuşa şəhərində yeni məscidin inşasına start verilib. Zəngilan şəhərində, Hadrutda və Daşaltıda məscidlərin yenidən qurulması və tikintisi prosesi başlamışdır.

Bütün bu işləri Heydər Əliyev Fondu öz imkanları hesabına görür. Bu, Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir. Bu, bizim borcumuzdur. Bunu biz edirik. Vətən qarşısında bu borcu şərəflə yerinə yetiririk. Necə ki, Vətən müharibəsində Azərbaycan xalqı tarixi ədaləti bərpa etdi, düşməni doğma torpaqlarımızdan qovdu. Beləliklə Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Mən müharibədən sonra Ağdama 3-cü dəfədir ki, səfər edirəm. Hər dəfə buraya gələndə ürəyim ağrıyır. Çünki Ağdamda bir dənə də olsun salamat bina yoxdur. Təkcə bu yarıdağılmış məsciddir ki, onun da dam örtüyü zədələnmişdir. Bu məscid ermənilər tərəfindən təhqir edilib, burada inəklər, donuzlar saxlanılıb. Ermənilər nəinki Azərbaycan xalqını, bütün müsəlman aləmini təhqir ediblər. Ağdam şəhərində, Ağdam rayonunda bu yarıdağılmış məsciddən başqa bir dənə də bina ayaq üstə deyil. Bütün binalar, bütün kəndlərdəki evlər, ictimai binalar ermənilər tərəfindən dağıdılıb. Bu, misli görünməmiş barbarlıqdır, vandallıqdır, vəhşilikdir. Bu, erməni faşizminin eybəcər sifətinin göstəricisidir. Bütün dünya bunu görməlidir və görür. Biz bundan sonra da xarici vətəndaşları buraya dəvət edəcəyik. Onlar gələcəklər və erməni vəhşiliyi nədir onu görəcəklər.

Artıq Ağdama və Şuşaya avtobus marşrutları təşkil edilib. Ağdamlılar, şuşalılar və digər bölgələrdən olan vətəndaşlar gəlirlər, tanış olurlar və öz gözləri ilə görürlər ki, bizim xalqımız hansı bəla ilə üz-üzə idi. Otuz il ərzində məqsədyönlü şəkildə bütün şəhərlərimiz, kəndlərimiz, məscidlərimiz, qəbiristanlıqlarımız ermənilər tərəfindən dağıdılıb. İmarət ermənilər tərəfindən dağıdılıb, təhqir edilib. İndi bəziləri gələcək barışıq haqqında danışırlar. Əlbəttə ki, Ermənistan-Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Beynəlxalq hüququn norma və prinsipləri əsasında qarşılıqlı surətdə ölkələrin ərazi bütövlüyünü tanımaq şərtilə bu sülh müqaviləsi imzalanmalıdır. Mən də onu demişəm. Ancaq heç vaxt Azərbaycan xalqı bu vəhşiliyi unutmamalıdır. Heç kim bu vəhşiliyi unutmamalıdır.

Əminəm ki, bizim bu gün gördüyümüz işlər, o cümlədən ordu quruculuğu sahəsində gördüyümüz işlər Azərbaycanı daha da gücləndirəcək və Ermənistanda baş qaldıran revanşist qüvvələrə cavab olacaq. Biz öz torpağımızdayıq. Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu torpaqda möhkəm dayanmışıq və bu torpaqlarda əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!

# DÖVLƏTİMİZİN BAŞÇISI VƏ BİRİNCİ XANIM QARABAĞ XANLARININ AĞDAMDAKI TÜRBƏLƏRİ VƏ YAŞAYIŞ EVİ - İMARƏT KOMPLEKSİNDƏ OLUBLAR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdamda Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksində olublar.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və xanımına kompleksdə görülməsi nəzərdə tutulan tədbirlər barədə məlumat verib.

Qeyd edək ki, XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindən olmaqla, iki binadan ibarətdir. Saray Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli yaşayış evi xüsusiyyəti daşıyıb. Buna görə də, Pənahəli xanın imarəti də adlandırılıb. İşğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb. Buradan tövlə kimi istifadə olunub.

Qarabağ xanları Pənahəli xanın, İbrahimxəlil xanın və Mehdiqulu xan Cavanşirin, eləcə də onların ailə üzvlərinin - Xan qızı, şairə və xeyriyyəçi Xurşidbanu Natəvanın, şair və ictimai xadim Cəfərqulu xan Cavanşirin, xeyriyyəçi, Şuşada Aşağı və Yuxarı Gövhərağa məscidlərini tikdirmiş Gövhərnisə bəyimin, şairə, "Məclisi-üns"ün iştirakçılarından olmuş Xanbikə xanımın qəbirləri burada yerləşir. Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı da erməni vəhşiliyinə məruz qalıb.

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ KOLLEGİYASININ İCLASI KEÇİRİLİB



Fevralın 1-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) 2021-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş onlayn kollegiya iclası keçirilib.

Komitə sədri Mübariz Qurbanlı iclası giriş sözü ilə açaraq ötən ilin Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan parlaq zəfərimizin ildönümü ilə əlamətdar olduğunu, bu qələbədən sonra qarşıda duran vəzifələrin uğurla icra olunduğunu bildirib.

M.Qurbanlı vurğulayıb ki, Vətən müharibəsində qələbə bölgədə yeni geosiyasi və geoiqtisadi reallıqlar yaradıb. Dövlət başçısının fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması bu kontekstdə mühüm tarixi-siyasi hadisədir. Bununla Azərbaycanın tarixi əraziləri arasındakı ənənəvi sosial-iqtisadi və mədəni bağlılığın bərpası istiqamətində mühüm addım atıldı. Ermənistanın hərbi təcavüzü nəticəsində öz ata-baba yurdlarından köçkün düşən insanların doğma torpaqlarına qayıdışının təmin edilməsi üçün işğaldan azad olunmuş ərazilərdə geniş quruculuq işlərinin aparılması, tarixi-dini abidələrimizin bərpa edilməsi istiqamətində layihələrin həyata keçirilməsi müstəqil Azərbaycan dövlətinin özünün ən şanlı dövrünə qədəm qoyduğunu bir daha təsdiqləyir.

Komitə sədri qeyd edib ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində Azərbaycanın bütün sahələrində tərəqqi təmin edilir, o cümlədən dövlət-din münasibətləri demokratik prinsiplərə uyğun olaraq tənzimlənir, dini etiqad və vicdan azadlığı, dini müxtəliflilik və milli-mənəvi dəyərlər qorunur, dinlərarası dialoq inkişaf edir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ötən ildə öz fəaliyyətini dövlət-din münasibətləri ilə bağlı Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətə müvafiq olaraq qurub və Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulmuş məqsədlərə nail olmağa çalışıb. Komitə, tabeliyində olan Azərbaycan İlahiyyat İnstitutu və Mənəvi Dəyərlərin Təbliği Fondu Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın xüsusi karantin rejiminin tətbiqi ilə bağlı qərarlarından irəli gələn tələbləri nəzərə almaqla fəaliyyətini davam etdirib. Qələbəmizin rəmzi olan Şuşa şəhərinin Azərbaycan xalqı üçün yüksək mədəni-mənəvi dəyəri nəzərə alınaraq, ölkəmizdə bu ilin "Şuşa İli" elan edildiyini xatırladan DQİDK sədri Dövlət Komitəsinin 2022-ci il üçün Tədbirlər Planında bununla bağlı layihələrin həyata keçiriləcəyini vurğulayıb. Hesabat dövründə Komitənin xarici əlaqələrini genişləndirdiyini, Qazaxıstan Respublikasının İnformasiya və İctimai İnkişaf Nazirliyinin Dini İşlər üzrə Dövlət Komitəsi ilə Memorandum imzalandığını, Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin rəhbəri Zaza Vaşakmadzenin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfər etdiyini, beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində konfransların təşkil edildiyini vurğulayan M.Qurbanlı cari ildə də beynəlxalq əməkdaşlığın əsas vəzifə və prioritetlər arasında yer aldığını deyib.

Daha sonra Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayevin Agentliyin 2021-ci ildə fəaliyyəti barədə hesabatı dinlənilib. Naxçıvan Muxtar Respublikasında dini abidələrin təmir və bərpasının diqqətdə saxlanıldığını bildirən V.Babayev 2021-ci ildə Cəhri qəsəbə məscidinin tikilib istifadəyə verildiyini söyləyib. Qeyd edib ki, Naxçıvan şəhərində yeni məscid kompleksinin tikintisi və Ordubad şəhər Came məscidinin təmir işləri hesabat dövrü ərzində davam etdirilib. Agentliyin direktoru ötən müddət ərzində din xadimlərinin biliklərinin artırılması məqsədilə, həmçinin dini təhsil almaq istəyənlər üçün Naxçıvan şəhər Sarvanlar, Babək, Şərur, Ordubad və Şahbuz şəhər məscidlərində qadın və kişilərdən ibarət təkmilləşdirmə kurslarının təşkil edildiyini, zərərli dini təyinatlı ədəbiyyatların, əşyaların və dini məzmunlu materialların muxtar respublika ərazisində yayılmasının nəzarətdə saxlanıldığını diqqətə çatdırıb.

Kollegiya iclasında hesabat məruzəsi ilə çıxış edən DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə bildirib ki, 2021-ci ildə Dövlət Komitəsinin əsas fəaliyyət istiqamətlərindən biri olan dini icmaların dövlət qeydiyyatına alınması prosesi davam etdirilib, 16 dini icma dövlət qeydiyyatından keçirilib, bununla da icmaların sayı 971-ə çatıb. Hazırda 9 dini icmanın sənədləri yoxlanılır. Eyni zamanda, 1 ixtisaslaşdırılmış satış məntəqəsinin fəaliyyətinə razılıq verilib. 2021-ci ildə Dövlət Komitəsinə daxil olmuş müraciətlər əsasında idxalı nəzərdə tutulan 5847 adda dini məzmunlu ədəbiyyata baxılıb, dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən kitabların ölkəyə idxalının və yayılmasının qarşısı alınıb. Ölkədə nəşr olunmaq məqsədilə dinşünaslıq ekspertizasına təqdim edilən 260 adda dini ədəbiyyat ekspertizadan keçirilib.

davamı səh. 4

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ KOLLEGİYASININ İCLASI KEÇİRİLİB

əvvəli səh. 3

Həmçinin hüquq mühafizə orqanlarından dinşünaslıq ekspertizasına göndərilmiş 104 adda dini təyinatlı ədəbiyyatdan zərərli, yaxud müvafiq razılıq alınmadan idxal və istehsal edilənlər müəyyən olunub. Hesabat dövründə 415 adda (752 560 ədəd) dini təyinatlı ədəbiyyata nəzarət markaları verilib.

C.Əlifzadə vurğulayıb ki, il ərzində müsəlman dini icmaların Ramazan, Qurban bayramları və Məhərrəmlik mərasimləri, eləcə də xristian dini icmaların Pasxa, Milad, yəhudilərin Pesax, Roş-Ha-Şana, Hanuka bayramları koronavirus pandemiyası ilə bağlı Operativ Qərargahın qərarlarına uyğun keçirilib. Komitə tərəfindən dini maarifləndirmə istiqamətində ölkə vətəndaşlarının cəlb olunduğu 630-dan artıq tədbir təşkil olunub. Vətən müharibəsi kontekstində, eləcə də 8 noyabr - Zəfər Günü münasibətilə ümumilikdə 100-dən artıq tədbir baş tutub. Həmçinin Komitə, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti arasında "2021-ci ildə dini ekstremizmə qarşı birgə mübarizəyə dair" imzalanmış Tədbirlər Planı, o cümlədən Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti, Dövlət Sərhəd Xidməti ilə hazırlanmış Tədbirlər Planları çərçivəsində tədbirlər reallaşıb.

"Nizami ili" çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Yazıçılar Birliyi və AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun birgə təşkilatçılığı, sədrin birinci müavini Səyyad Salahlının iştirakı ilə "Nizami Gəncəvinin dini-fəlsəfi görüşlərində ümumbəşəri ideyalar" mövzusunda onlayn konfrans keçirilib. Eyni zamanda S.Salahlının sözügedən mövzuda məqalələri işıq üzü görüb.

Ötən il audiovizual və interaktiv maarifləndirmə sahəsində Dövlət Komitəsinin sifarişi ilə "Dövlət və din", "Könüllülər hərəkatı və dini icmalar", "Biz birlikdə güclüyük", "Qarabağ Azərbaycandır", "Din və sosial media", "Şuşa mənəviyyat incisi", "İrəvan Göy məscidi", "Dəmir yumruq", "Vətən naminə", "Müstəqilliyimiz tarixi nemətimizdir", "Ağoğlan məbədi", "Xudavəng məbədi", "Ağdam Cümə məscidi", "Erməni vandalizmi", "Qarabağın tarixi-dini abidələri" adlı film və videoçarxlar hazırlanaraq yerli telekanallarda, eləcə də sosial mediada nümayiş etdirilib.

C.Əlifzadə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasının daim diqqət mərkəzində saxlanıldığını, bu məqsədlə beynəlxalq konfranslar təşkil edildiyini, Komitə əməkdaşlarının xarici mətbuatda, eləcə də xarici internet resurslarında məqalələrlə çıxış etdiyini vurğulayıb. Bununla yanaşı, BMT-nin mənzil qərargahında qurumun İqtisadi və Sosial Şurasının "Bərabərliyə yeni baxış: Dayanıqlı İnkişaf Məqsədləri üzrə fəaliyyətin onilliyi çərçivəsində irqçilik, ksenofobiya və ayrı-seçkiliyin hər kəs üçün aradan qaldırılması" mövzusunda nazirlərin iştirakı ilə virtual formatdakı görüşdə, Özbəkistanın təşkilatçılığı ilə baş tutan "Radikalizm, ekstremizm və terrorizmlə mübarizədə gənclərin rolu" mövzusunda beynəlxalq videokonfransda, Avropa İttifaqı-Azərbaycan Ədliyyə, Azadlıq və Təhlükəsizlik, İnsan hüquqları və Demokratiya məsələləri üzrə Alt-Komitəsinin 9-cu onlayn iclasında, Macarıstanın Debretsen şəhərində "Müasir Avropanın sütunları: dini icmaların birgəyaşayışı" mövzusundakı konfransda, Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik, İslam məsələləri sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın növbəti 6-cı iclasında Azərbaycanın Komitə rəsmiləri tərəfindən təmsil edildiyini, o cümlədən Dövlət Komitəsi və aidiyyəti qurumların birgə təşkilatçılığı ilə "Qafqaz Albaniyası: tarix, din və memarlıq" mövzusunda onlayn formatda beynəlxalq elmi konfrans, Komitənin təşəbbüsü, Azərbaycan Respublikasının Belçikadakı Səfirliyi və Avropa İttifaqı yanında Nümayəndəliyinin dəstəyi ilə "Dinlərarası dialoq: qlobal təhlükəsizliyin və mənəvi intibahın qarantı kimi" mövzusunda beynəlxalq videokonfrans keçirildiyini deyib.

Daha sonra çıxış edən Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov hesabat dövründə görülən işlər barədə məlumat verərək qeyd edib ki, 2021-ci ildə İnstitutun bakalavr səviyyəsinə 3-ü əcnəbi olmaqla 68 tələbə qəbul olunub. Onlardan 33 tələbə "Dinşünaslıq", 35 tələbə isə "İslamşünaslıq" ixtisasları üzrə təhsil alır. 2020/2021-ci tədris ilində tələbələrin həm akademik, həm də şəxsi inkişafına töhfə vermək məqsədilə Beynəlxalq Miqrasiya Təşkilatının təşkilatçılığı ilə İnstitutda ingilis dili kursları, IV kurs tələbələri üçün Peşə hazırlığı kursu keçirilib. Hesabat dövründə İnstitut və "Alban-Udi Xristian" dini icmasının birgə təşkilatçılığı ilə Qəbələ rayonunun Nic qəsəbəsində "Alban-Udi Xristian" dini icması üçün xristianlıq tədris kursu fəaliyyətə başlayıb.

Rektor xarici ölkələrin müvafiq ali təhsil müəssisələri ilə əlaqələrin gücləndirilməsi, elm və təhsil sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, müəllim və tələbə mübadiləsi proqramlarının reallaşdırılması məqsədilə İnstitut ilə Pakistan İslam Respublikasının Müsəlman İnstitutu arasında Anlaşma Memorandumu, Qazaxıstanda fəaliyyət göstərən "Nur-Mübarək" Misir İslam Mədəniyyəti Universiteti ilə əməkdaşlıq müqaviləsi imzalandığını vurğulayıb.

Avropa İttifaqının maliyyələşdirdiyi, BMT-nin Əhali Fondu və BMT-nin Qadınlar üzrə Agentliyinin birgə həyata keçirdikləri "Avropa İttifaqı gender bərabərliyi naminə: gender stereotipləri və gender əsaslı zorakılığa qarşı" regional proqramı çərçivəsində İnstitutun 100-dək tələbəsi üçün təlim və infosessiyalar keçirilib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun 2021-ci ildəki fəaliyyəti və cari ildə görüləcək işlərə dair hesabatla isə Fondun icraçı direktoru Mehman İsmayılov çıxış edib. M.İsmayılov bildirib ki, Fond bir sıra İslam və qeyri-İslam dini icmalarının maarifləndirici layihələrinə maddi dəstək göstərib. Həmçinin Fondun dəstəyi ilə "Alban-Udi Xristian" dini icmasının üzvləri Pasxa bayramında Laçın rayonundakı "Ağoğlan" monastırını, Kəlbəcər rayonundakı "Xudavəng" məbədini və Xocavənd rayonunun Tuğ kəndindəki Alban məbədini ziyarət ediblər. Fond Ramazan ayı münasibətilə müsəlman dini icmalarla birlikdə "Şəhid ailələrinə Ramazan sovqatı" aksiyasını həyata keçirib, aksiya çərçivəsində ümumilikdə 720 nəfər Vətən müharibəsi şəhidinin ailəsi ziyarət edilib. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edən dini icma sədri və din xadimlərinə birdəfəlik maddi yardım göstərilib. Məhərrəm ayı çərçivəsində doğum günü olan ümumilikdə 700 nəfərdən çox Vətən müharibəsi şəhidlərinin ailələri ilə görüşlər keçirilib. Fond Bütün Gürcüstan Müsəlmanları İdarəsinin müraciəti əsasında nəşr etdirdiyi 2300-dən çox Qurani-Kərim kitabını (Azərbaycan dilində) soydaşlarımızın istifadəsi üçün Gürcüstana göndərib.

Daha sonra Dini maarifləndirmə şöbəsinin müdiri Sadiq Mirzəyev Komitənin 2022-ci ilin Tədbirlər planı barədə məruzə edib, rəy və təkliflər nəzərdən keçirilib. Yekunda Aparat rəhbəri Amil Cavadov tərəfindən Kollegiyanın qərar layihəsi səsləndirilib və müzakirələrdən sonra qəbul edilib.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı fevralın 8-də Rumıniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vasile Soare ilə görüşüb.

Rumın və Azərbaycan xalqları arasında tarixi əlaqələrin mövcud olduğuna diqqət çəkən Dövlət Komitəsinin sədri bu əlaqələrin bütün sahələrdə uğurla davam etdiyini bildirib. Dövlət Komitəsinin fəaliyyəti, Azərbaycandakı dini durum, dövlət-din münasibətləri, dinə dövlət qayğısı barədə məlumat verən Mübariz Qurbanlı bildirib ki, ölkəmizdə məscidlərlə yanaşı, kilsə və sinaqoqlar da mövcuddur, müxtəlif konfessiyalar sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərir, İslam və qeyri-islam dini icmalarına dövlət tərəfindən mütəmadi olaraq maddi yardım ayrılır.

Azərbaycanın müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə etdiyi parlaq qələbədən sonra azad olunmuş torpaqlarımızda ermənilərin vandalizmə məruz qoyduqları tarixi-dini abidələrimizin bərpası və yenidən qurulması prosesi barədə səfiri məlumatlandıran M.Qurbanlı Azərbaycan dövlətinin İslam abidələri ilə yanaşı, qeyri-islam abidələrinin də bərpasına eyni həssaslıqla yanaşdığını bildirib.

Azərbaycanın tolerantlıq, multikulturalizm, milli-mənəvi dəyərlərin qorunmasına və inkişafına görə nümunə ölkələrdən biri olduğunu deyən Komitə sədri ölkələrimizin tolerant və multikultural dəyərlərə verdiyi önəm baxımından da oxşar olduğunu vurğulayıb.

Vasile Soaren öz növbəsində səmimi qəbula görə təşəkkürünü bildirib, xüsusilə Ermənistanın təcavüzkarlığına qarşı Azərbaycanın haqlı mövqeyinin, həmçinin ərazi bütövlüyünün Rumıniya tərəfindən daima beynəlxalq təşkilatlarda və ikitərəfli münasibətlərdə dəstəkləndiyini məmnunluqla ifadə edib. Azərbaycanın ən böyük uğura imza ataraq torpaqlarını işğaldan azad etməsinin mühüm hadisə olduğunu bildirib.

Səfir ölkəmizin mühüm beynəlxalq layihələri reallaşdırması, mədəniyyətlər və sivilizasiyalar arası dialoqun inkişafına yönəlmiş tədbirlərə ev sahibliyi etməsinin əhəmiyyətini xüsusi vurğulayıb. Diplomat Azərbaycan və Rumıniyanın dost ölkələr olduğunu qeyd edib və səfir kimi fəaliyyətində iki ölkə arasında mədəni müxtəliflik, tolerantlıq və multikulturalizm kimi məsələlər üzrə fəal iş aparılmasında maraqlı olduğunu diqqətə çatdırıb.

Görüşdə, eyni zamanda dini sahədə əlaqələrin daha da genişləndirilməsi imkanları, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Sonda qonağa Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi, ölkəmizin tolerant və multikultural mühitindən bəhs edən kitablar hədiyyə edilib.

***

Fevralın 7-də DQİDK-nın sədr müavini Sahib Nağıyev "Gateway Baptist Church" kilsələr şəbəkəsinin baş pastoru Brok Mak Donald və Flin Ronald İgne ilə görüşüb.

Qonaqlara Azərbaycandakı dini mühit, Dövlət Komitəsinin fəaliyyəti barədə ətraflı məlumat verən sədr müavini ölkəmizdə hökm sürən yüksək tolerantlıq və birgəyaşayış modelinə diqqət çəkərək bildirib ki, bütün xalqların mehriban və bir-birinin adət-ənənəsinə hörmət ruhunda yaşaması həm tarixən, həm də bu gün malik olduğumuz ən böyük mənəvi dəyərlərdən biridir. Bu dəyər həm də ölkəmizin inkişafının və ictimai-siyasi sabitliyinin mühüm şərtləri sırasında yer alır. S.Nağıyev Azərbaycandakı müxtəlif dini konfessiya nümayəndələri, həmçinin etnik qruplar, onların əsrlərboyu qarşılıqlı anlaşma şəraitində yaşaması, eləcə də, multikultural cəmiyyətdəki inteqrasiya və idarəetmə siyasəti barədə danışıb. Bildirib ki, dövlətin başlıca məqsədi ümumbəşəri dəyərlər üzərində qurulan fərqli dinlərin nümayəndələrinin birlikdə, tolerantlıq mühitində yaşamalarını təmin etməkdir.

44 günlük Vətən müharibəsində qazandığımız qələbənin əsasında Prezident İlham Əliyevin uzaqgörən və praqmatik siyasəti ilə yanaşı, milli-dini həmrəyliyimizin dayandığını vurğulayan sədr müavini bu həmrəyliyin Qələbədən sonrakı dövrdə də - ermənilər tərəfindən vandalizmə məruz qalan tarixi-dini abidələrimizin bərpası prosesində davam etdirildiyini bildirib.

Səfərindən məmnunluğunu ifadə edən Brok Mak Donald ölkəmizdə bütün dinlərin nümayəndələrinin bərabərhüquqlu fəaliyyət göstərməleri üçün hər cür şəraitin yaradılmasının əyani şahidi olduğunu vurğulayıb. Bunu tolerantlığın bariz nümunəsi kimi qiymətləndirən qonaq dini icmaya göstərilən dəstəyə və qayğıya görə minnətdarlığını bildirib.

Görüşün sonunda qonaqlara Dövlət Komitəsinin nəşr etdirdiyi, Azərbaycandakı tolerantlıq mühitindən bəhs edən kitablar təqdim edilib.

# SƏYYAD SALAHLIYA "ŞÖHRƏT" ORDENİ TƏQDİM OLUNUB



Fevralın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı tərəfindən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif olunmuş DQİDK sədrinin birinci müavini Səyyad Salahlıya bu ali mükafat təqdim edilib.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı onun əməyinə verilən yüksək qiymətə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını ifadə edib.

# DİLÇİLİK İNSTİTUTUNDA DİNİ TERMİNLƏRİN ORFOQRAFİYA VƏ ORFOEPİYASI İLƏ BAĞLI MÜZAKİRƏLƏR APARILIB



Fevralın 23-də AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə "Dini terminlərin orfoqrafiya və orfoepiyası" mövzusunda elmi seminar keçirilib.

Tədbiri giriş sözü ilə açan İnstitutun baş direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədli bildirib ki, ölkəmizdə hər il din sahəsində çoxlu sayda əsərlər nəşr olunur. Dini nəşrlərin elmi və linqvistik keyfiyyətinin artırılması üçün vahid terminologiyanın yaradılması vacibdir. Həmin terminlərin Azərbaycan dilinin orfoqrafiya və orfoepiya normalarına uyğun yazılması, tələffüz olunması vacib məsələdir.

İclasda filologiya elmləri doktoru Nəriman Seyidəliyev "Dini terminlərin Azərbaycan dilində işlənmə formaları" mövzusunda məruzə ilə çıxış edib. Bildirilib ki, ərəb və fars mənşəli terminlərdən istifadə zamanı Azərbaycan dilinin qrammatik qaydalarına əməl olunmalıdır. Məsələn, Muhammad deyil, Məhəmməd kimi tələffüz olunmalıdır. Allah-təala- Allah–taala, Allahü-əkbər- Allahu-əkbər, həci-hacı, cəmaət-camaat, sələvat-salavat kimi yazılmalıdır.

İclasda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədrinin birinci müavini Səyyad Aran, Dinşünaslıq ekspertiza şöbəsinin müdiri Nahid Məmmədov çıxış ediblər. Qonaqlar dini ədəbiyyatların nəşri və tərcüməsi, mövcud vəziyyəti və problemlərindən danışıblar.

Nahid Məmmədov qeyd edib ki, dini ədəbiyyatların dilimizə tərcüməsi zamanı yaxşı tərcümələrlə yanaşı, qüsurlu, Azərbaycan dili normaları ilə səsləşməyən, sintaktik qaydalara uyğun gəlməyən birləşmələrin, yad terminlərin üstünlük təşkil etdiyi tərcümələr də mövcuddur. Məlumdur ki, dini ədəbiyyat məzmun etibarilə spesifikdir, eyni zamanda, dini terminlərlə zəngin olur. Terminlərin düzgün ifadə olunması ilə yanaşı, ərəb-fars sözlərinin dilimizdə tam mənanı ifadə edə biləcək uyğun sözlərlə əvəzlənməsi də vacibdir.

Vurğulanıb ki, dini sözlərin və terminlərin yazılışında ciddi səhvlərə yol verilir, hədislərdə sözlərin tələffüzünə fikir verilmir.

Sonda mövzu ətrafında müzakirələr aparılıb.

# YENİ QEYDİYYATDAN KEÇMİŞ DİNİ İCMALARA ŞƏHADƏTNAMƏLƏR TƏQDİM EDİLİB



Fevralın 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) yeni qeydiyyatdan keçmiş dini icmalara şəhadətnamələr təqdim edilib. Tədbirdə Dövlət Komitəsinin rəhbərliyi, şöbə müdirləri və yeni qeydiyyatdan keçmiş dini icmaların sədrləri iştirak ediblər.

Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi və dini sahədə sabitliyin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olmasını tədbir iştirakçılarının diqqətinə çatdıran DQİDK sədrinin birinci müavini Səyyad Salahlı cənab Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini vurğulayıb. Bildirib ki, Azərbaycanda dövlət-din münasibətləri qanunla tənzimlənir və mövcud qanunvericilik bu münasibətləri yüksək səviyyədə nizamlayır. Azərbaycanda müxtəlif din mənsublarının birgəyaşayışının nümunəvi xarakter daşıdığını qeyd edən sədrin birinci müavini ölkəmizin dözümlülük mədəniyyətinin formalaşdığı ərazi və tolerantlığın beşiyi olduğunu deyib.

Yeni qeydiyyatdan keçmiş dini icmaların sədrlərinə tövsiyələrini verən Səyyad Salahlı onların yerlərdə müvafiq dövlət qurumlarının nümayəndələri ilə qarşılıqlı əməkdaşlıq və fəaliyyətinin zəruriliyindən danışıb, dini icma rəhbərlərini milli-mənəvi dəyərlərin ictimaiyyətə düzgün çatdırılması işində aktiv olmağa çağırıb.

Sonda yeni qeydiyyatdan keçmiş dini icmaların sədrlərinə şəhadətnamələr təqdim edilib.

Dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan 975 dini qurum dövlət qeydiyyatına alınıb. Konfessional baxımdan onların 938-i İslam, 37-i isə qeyri-islam təmayüllüdür.

# BRAZİLİYA MƏTBUATINDA XOCALI SOYQIRIMI BARƏDƏ MƏQALƏ DƏRC EDİLİB

Braziliyanın Azərbaycan və Xəzər hövzəsi regionu üzrə ixtisaslaşan portuqal dilli internet portalı "Espaco Caspio"da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Bəhruz Orucovun "Xocalı faciəsi: insanlığa qarşı zorakı cinayət" adlı məqaləsi dərc edilib.

Soyqırımının 30-cu ildönümünə həsr edilmiş məqalədə ermənilər tərəfindən 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı əhalisinə qarşı törədilmiş misilsiz vəhşiliklərdən bəhs edilib.

Bildirilib ki, Xocalı soyqırımı zamanı 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca olmaqla 613 nəfər vəhşicəsinə qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürülüb, onlardan 150-sinin taleyi indi də məlum deyil. Əhalisinin əksəriyyətini etnik azərbaycanlıların təşkil etdiyi Xocalı şəhəri yerlə yeksan edilib.

Məqalədə o da qeyd edilib ki, 1994-cü ildə Azərbaycan parlamenti fevralın 26-nı Xocalı Soyqırımı Günü elan edib. Dünyanın 10-dan çox ölkəsinin parlamenti, 57 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatı, həmçinin ABŞ-ın 20-dən çox ştatının qanunverici orqanı Xocalı faciəsini soyqırımı aktı olaraq dəyərləndirib.

Yazıda, eyni zamanda 2008-ci il mayın 8-dən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başladılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının məqsədi, həyata keçirdiyi tədbirlərdən bəhs edilib. Azərbaycan dövlətinin Xocalı faciəsi həqiqətlərinin beynəlxalq səviyyədə bundan sonra da tanınmasını davam etdirəcəyi vurğulanıb.




Nəzərə çatdırılıb ki, Xocalı soyqırımının otuzuncu ildönümü ilə əlaqədar tədbirlər planının həyata keçirilməsinə dair Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Sərəncam imzalanıb.

Məqalədə dost Braziliya xalqının tarixdə bir sıra kütləvi insan qətlləri ilə nəticələnmiş oxşar faciələrə məruz qoyulduğu vurğulanaraq, yaşanmış soyqırımları arasında müqayisələr aparılıb. Braziliya ictimaiyyətində erməni yalanının ifşa edilməsi önə çəkilərək, dünyamızda bu kimi qanlı olayların təkrar baş verməməsi üçün birgə işlərin vacibliyi bildirilib.

# GÜNDÜZ İSMAYILOV: "DİN XADİMİNİ DÖVLƏT QURUMUNUN TƏYİN ETMƏSİ DÜNYƏVİLİK PRİNSİPLƏRİNƏ ZİDD DEYİL"

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılovun "Report"a müsahibəsi***



**- Hazırda Azərbaycanda din sahəsindəki vəziyyəti necə qiymətləndirirsiniz? Ötən ili necə başa vurdunuz?**

- Hazırda ölkəmizdə dini durum sabitdir. Dini mühitdə müsbət tendensiyalar var və zaman keçdikcə bu tendensiyalar həm sürətlənir, həm də güclənir. Məsələn, cəmiyyətimiz əvvəlki illərlə müqayisədə indi dini məsələlərə daha həssas yanaşır, dini radikalizmin, məzhəbçiliyin, dinin siyasiləşməsinin, dini dözümsüzlüyün nə dərəcədə təhlükəli olduğunu dərk edir. Eyni zamanda, dini maarifçilik işi ilbəil gücləndirilir və cəmiyyətin bütün təbəqələrini əhatə edir. Maarifləndirmə tədbirləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşlarının, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələrinin, ilahiyyatçıların və digər mütəxəssislərin iştirakı ilə aparılır. Maarifləndirmə işinə paralel olaraq din sahəsində milli kadrların hazırlanması istiqamətində ardıcıl tədbirlər davam etdirilir. Bu il Azərbaycan İlahiyyat İnstitutu ilk məzunlarını verəcək. İnanırıq ki, məzunlar arasından din xadimi kimi təyinat alanlar olacaq. Din sahəsində problemlərə gəlincə, etiraf edək ki, dinin siyasiləşdirilməsinə, məzhəbçiliyə, dini radikalizmə, milli kimliyimizlə dini kimliyimizin qarşı-qarşıya qoyulmasına yönəlik cəhdlər hələ də var. Bu cəhdlər daha çox kənar təsirlərlə bağlıdır və onların qarşısı qətiyyətlə alınır. Qeyd etdiyim bütün istiqamətlərdə ötən ili uğurlu hesab edirəm. Çünki pandemiya şəraitinə baxmayaraq, bir xeyli uğurlu nəticələr əldə edə bilmişik. Bu nəticələr xüsusilə dini duruma kənar təsirlərin qarşısını almaq baxımından çox önəmlidir.

**- İşğaldan azad edilən ərazilərdə dini ibadət yerlərinin bərpası üçün hansı işlər görülür?**

- Ermənistanın təcavüzkar siyasətinin qurbanları təkcə insanlarımız yox, həm də tarixi-dini abidələrimizdir. Ermənilər dini abidələrimizə qarşı məqsədyönlü iş aparıblar. Çalışıblar ki, işğal etdikləri ərazilərdən türk-İslam izini silsinlər, alban mədəniyyətini isə qriqoryanlaşdırsınlar. Bunun üçün 200-ə yaxın ziyarətgahımızı, yüzlərlə qəbiristanlığımızı yerlə yeksan ediblər. 67 məsciddən 65-ni tamamilə dağıdıblar, yalnız ikisi qismən saxlanılıb. Amma qismən saxladıqları o iki məscidlə bağlı məkrli niyyətləri olub. Ağdam Cümə məscidini hərbi məqsədlə istiqamətləndirici nişangah (aryentir) kimi saxlayıblar. Şuşadakı "Yuxarı Gövhər ağa" məscidində isə müəyyən təmir işləri aparmaqla saxtakarlıq və riyakarlıq ediblər. Saxtakarlıqları odur ki, təmirdən sonra "Yuxarı Gövhər ağa" məscidini İran-fars məscidi kimi təqdim etməyə çalışıblar. Guya bu ərazilərdə azərbaycanlılar yaşamayıb. Riyakarlıqları da odur ki, məscidi təmir etməklə guya tolerant olduqlarını, fərqli inanclara hörmətlə yanaşdıqlarını göstərmək istəyiblər. Halbuki, 44 günlük Vətən müharibəsində bütün dünya gördü ki, ermənilər müsəlmanlar üçün müqəddəs olan məsciddə məqsədli şəkildə, dini heysiyyatımıza toxunmaq üçün donuz saxlayıblar. Alban məbədlərinə gəlincə, onların mütləq əksəriyyəti qriqoryanlaşdırılıb, bunun üçün məbədlərin interyeri, kitabələri dəyişdirilib, saxtalaşdırılıb. Hansı məbədləri ki qriqoryanlaşdıra bilməyiblər, onları taleyin ümidinə buraxıblar. Bir sözlə, ermənilərin tarixi-dini abidələrimizə qarşı planlı fəaliyyəti məhv etmək, özününküləşdirmək və özgəninkiləşdirmək istiqamətində həyata keçirilib. İşğaldan azad olunmuş ərazilərimizdəki tarixi-dini abidələrimizin bərpası dövlətimiz və xalqımız üçün olduqca önəmli məsələdir. Şəhər və kəndlərimizin bərpası layihəsi hazırlanarkən bu məsələyə xüsusi önəm verilir. Təsadüfi deyil ki, bərpasına başlanılan ilk tikililər məhz tarixi dini abidələrimizdir. Şuşada "Yuxarı Gövhər ağa", "Aşağı Gövhər ağa", "Saatlı" məscidlərinin bərpasına, Zəngilanda şəhər məscidinin yenidən qurulmasına çoxdan başlanılıb. Şuşa, Hadrut və Daşaltıda yeni məscidin əsası qoyulub. Bununla bağlı mərasimlərdə Prezident İlham Əliyev şəxsən iştirak edib. Ümumiyyətlə, bu işlər ölkə Prezidentinin rəhbərliyi altında ardıcıl və həssaslıqla həyata keçirilir. Təbii ki, işğaldan azad olunmuş ərazilərdə tarixi-dini abidələrin bərpasında Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi qeyd olunmalıdır. Bu fəaliyyətə Ağdam Cümə məscidinin və Ağdam rayonu, Qiyaslı məscidinin əsaslı bərpası da daxildir. Onu da deyim ki, tarixi-dini abidələrin bərpası dedikdə, biz alban məbədlərini də nəzərdə tuturuq. Çünki bu məbədlər də Azərbaycan xalqının zəngin mədəni-mənəvi irsinin tərkib hissəsidir.

**- "Dini etiqad azadlığı haqqında" qanuna təklif edilən dəyişikliklər qəbul edilərsə, dini sahədə nə kimi yeniliklər gözlənilir?**

- Qanuna təklif edilən dəyişikliklərin təşəbbüskarı Milli Məclisdir. Həmin dəyişikliklər Milli Məclisdə birinci oxunuşda qəbul edilib. Prosedur belədir ki, dəyişikliklər parlamentdə ikinci və üçüncü oxunuşda qəbul edilməli, daha sonra həmin dəyişikliklərin qüvvəyə minməsi barədə ölkə Prezidenti fərman imzalamalıdır. Yalnız bundan sonra qanun icra ediləcək. Təbii ki, təklif edilən dəyişikliklər qəbul ediləcəyi təqdirdə dini sahədə yeniliklər olacaq. Birincisi, müsəlman din xadimlərinin təyinatı dövlət qurumu tərəfindən həyata keçiriləcək. İkincisi, dini icmalar dövlət qeydiyyatından keçmək üçün təsis sənədlərini dini mərkəz və idarələr vasitəsilə deyil, birbaşa dövlət orqanına təqdim edəcəklər. Üçüncüsü, vətəndaşlar həm nağd, həm də elektron, plastik kartlar, internet vasitəsilə ianə (sədəqə) verə biləcəklər. Bütün bunlar təbii ki, dövlət-din münasibətləri sahəsində islahat mahiyyətində dəyişikliklər deməkdir. Qeyd edim ki, bu dəyişikliklər müasir dövrün çağırışları ilə uzlaşır.

**- Dəyişikliklər Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) dini sahədəki funksiyasına necə təsir edəcək? Bəzi qüvvələr qəsdən dəyişikliklərlə bağlı layihəni QMİ-nin səlahiyyətlərinin məhdudlaşdırılması kimi qəbul edir. Bunun əsası varmı?**

- Məncə, bu cür məsələlərə məkrli niyyətlə yanaşanların olması başa düşüləndir. Amma məkrli qruplara və şəxslərə ən yaxşı cavabı elə QMİ verdi. İdarənin yaydığı açıqlamada bildirilir ki, bu dəyişikliklər dövlət-din münasibətlərinin tənzimlənməsi ilə bağlı qanunvericilik sahəsində aparılan islahatların davamı, tərkib hissəsidir. QMİ həm də dəyişikliklər qəbul ediləcəyi təqdirdə din xadimlərini və dindarları, ümumiyyətlə, hər kəsi ona əməl etməyə çağırdı. Bu açıqlama ilə QMİ dövlətçiliyimizə və milli maraqlamıza sadiqliyini nümayiş etdirdi. QMİ Azərbaycanın ənənəvi dini mərkəzidir, 200-ə yaxın yaşı var. Qanuna dəyişikliklər qəbul ediləcəyi təqdirdə İslam icmaları dini məsələlərdə yenə də QMİ-yə tabe olacaq. Həmçinin, İslam din xadimlərinin attestasiyasında İdarənin nümayəndələri iştirak edəcəklər. Bir sözlə, QMİ ənənəvi dini mərkəz kimi tarixi funksiyasını və şəriətlə bağlı fəaliyyətini davam etdirəcək.

**- Təkliflərdən biri İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadimlərinin təyinatı səlahiyyətinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə verilməsi ilə bağlıdır. Bu zaman Dövlət Komitəsi QMİ-yə məlumat verəcək. Konstitusiyaya görə, Azərbaycanda din dövlətdən ayrıdır. İbadət yerinə rəhbər təyinatının Dövlət Komitəsinə verilməsi dövlətin dini işlərə müdaxiləsi kimi qiymətləndirilə bilərmi?**

- Doğrudur, Konstitusiyamıza görə, din dövlətdən ayrıdır və Azərbaycan dünyəvi dövlətdir. Amma din xadiminin dövlət qurumu tərəfindən təyin olunması dövlətin dindən ayrı olması və dünyəvilik prinsiplərinə zidd deyil. İzah edim: bir var din, bir də var din xadimi. Din şəriət qaydaları, ehkamlardır. Dövlət din xadimi təyin etməklə şəriətə, ehkamlara müdaxilə etmir. Məsələn, "namaz belə qılınmalı", "oruc belə tutulmalıdır" deyə dövlətin hansısa bir müdaxiləsi ola bilməz.

Din xadiminə gəlincə, o, din yox, belə demək mümkünsə, dini fəaliyyətin təşkilatçısıdır. Deməli, dövlət dinə - şəriətə müdaxilə etmir, dini fəaliyyətin təşkilatçısını özü müəyyən etməklə, bu fəaliyyətə nəzarət edir. Əgər dəyişiklik qəbul edilsə, din xadimi dövlət qurumu tərəfindən təyin edilən ilk dünyəvi dövlət Azərbaycan olmayacaq. Məsələn, qardaş Türkiyədə Atatürkdən üzü bəri müsəlman din xadimləri Diyanət İşləri Başqanlığı tərəfindən təyin edilir. Məscid imamları Türkiyədə dövlət qulluqçularıdır. Bu cür nümunələr dünyəvilik anlayışının beşiyi sayılan Avropada da var. Məsələn, dünyada liberal və mütərəqqi dəyərləri müdafiə edən ölkələr kimi tanınan Norveç, Danimarka, Finlandiya, İngiltərə və İslandiyada hətta ölkənin qanunlarında onun hansı dinə (bəzən təriqətə) aid olması təsbit edilib. Norveç Konstitusiyasına görə, hökumət üzvlərinin ən azı yarısı kilsənin üzvü olmalıdır. Yaxud İngiltərədə kral Anqlikan kilsəsinin rəhbəri hesab edilir. Həmçinin kral kilsəni faktiki idarə edən şəxsi və əsas din xadimlərini təyin edir. Bu təyinatlara namizədlər isə hökumət tərəfindən verilə bilir. Başqa bir nümunə isə sərt dünyəvilik modelinin bariz nümunəsi olan, dünyəviliyin vətəni sayılan Fransadır. Bu ölkənin Elzas bölgəsində dövlət din xadimlərinə maaş verir, din xadimlərini himayə və təyin edir. Bu cür nümunələr həm Qərbdə, həm də Şərqdə kifayət qədərdir.

**- Müzakirə edilən məsələlərdən biri də məscidlərdə və digər ibadət yerlərində ianələrlə bağlıdır. Qanuna təklif edilən dəyişikliklərdən sonra ianələrə nəzarət və həmin vəsaitin xərclənməsi sahəsində nə kimi dəyişikliklər olacaq? Şəffaflıq necə təmin olunacaq?**

- Təklif edilən dəyişikliklər ianələrin qəbul edilməsi qaydası ilə bağlıdır. Mahiyyəti budur ki, vətəndaşlar həm nağd, həm də köçürmə yolu ilə ianə edəcə biləcəklər. Burada da əsas məqsəd şəffaflığı təmin etməkdir. O ki qaldı ianə qəbul edilməsi ilə bağlı qaydalara, bu barədə indidən danışmaq tezdir. Qanuna dəyişikliklər qəbul edildikdən sonra bu barədə danışmaq olar.

**- Məscidlərdə "nəzir qutuları" ləğv oluna bilərmi?**

- Bu cür sualların verilməsini başa düşürəm. Bilirəm ki, insanlar üçün bu məsələlər həm maraqlı, həm də önəmlidir. Amma dəyişikliklər qəbul edilmədən bu mövzuda müzakirələr açmağı doğru hesab etmirəm. Zamanı gələndə bütün məsələlər müzakirə edilə və suallar cavablandırıla bilər.

**- Uzun illərdir cəmiyyətdə bir məsələ müzakirə olunur: məscidlərdə toplanan ianələr hara xərclənir? Sizcə, bu sahədə indi şəffaflıq varmı? Gələcəkdə bu ianələr hara xərclənə bilər?**

- Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi indiyədək ianələrlə bağlı məsələlərə hansısa formada müdaxilə etməyib. Ona görə də bu barədə kifayət qədər məlumatım olmadığı üçün nəsə demək istəmirəm. Gələcəkdə ianələrin hara xərclənə biləcəyinə gəlincə, siz, təbii ki, qanuna dəyişiklikləri nəzərdə tutaraq bu sualı verirsiniz. Mən isə bu cür məsələləri yalnız qanun qüvvəyə mindikdən sonra müzakirə etməyin tərəfdarıyam.

# DÖVLƏT KOMİTƏSİNDƏ KÖNÜLLÜLƏR VƏ XI BEYNƏLXALQ MULTİKULTURALİZM QIŞ MƏKTƏBİNİN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞLƏR KEÇİRİLİB

Fevralın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) könüllülərlə görüş keçirilib. Görüşdə Dövlət Komitəsinin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verən sədr müavini Gündüz İsmayılov könüllülük fəaliyyətinin gənclərin işgüzarlığının, bilik və bacarığının artırılmasında, dünyagörüşünün genişlənməsində rolunu vurğulayıb. G.İsmayılov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək diqqəti və təşviqi nəticəsində Azərbaycanda könüllülük fəaliyyətinin geniş yayıldığını bildirib və könüllülərin öz xeyirxah əməlləri ilə cəmiyyətimizin inkişafına töhfə verdiklərini qeyd edib.



Komitə rəsmisi könüllülərə yönəlik növbəti tədbirlər barədə fikirlərini bölüşüb, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Qeyd edək ki, Dövlət Komitəsinin 16 nəfərdən ibarət könüllülər qrupu Azərbaycanın müxtəlif universitetlərinin tələbə və məzunlarıdır. 6 ay müddətində könüllü kimi fəaliyyət göstərib müqavilə öhdəliklərini uğurla başa vuran gənclərin hər birinə xüsusi sertifikatlar veriləcək ki, bu da onların əmək fəaliyyətinə uğurlu bir keçid fürsəti olacaq.

***

Fevralın 22-də isə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) təşkil etdiyi XI Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları ilə görüş keçirilib.



Görüşdə çıxış edən Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov iştirakçıları DQİDK-nın fəaliyyət istiqamətləri barədə məlumatlandıraraq ölkəmizdə hökm sürən tolerantlıq mühiti, xalqımıza məxsus multikultural dəyərlər, dinlərarası harmoniya, müxtəlif din mənsublarına dövlət tərəfindən göstərilən diqqət və qayğı haqqında danışıb. Bildirib ki, Azərbaycan vicdan azadlığının və multikultural mühitin təmin edilməsinə, yüzilliklər ərzində formalaşmış tolerantlıq ənənələrinin, eləcə də tarixi-dini abidələrin bərpasına və qorunmasına görə öndə gələn dövlətlər sırasındadır. G.İsmayılov ölkəmizdə xristian, yəhudi və digər dini konfessiyaların nümayəndələrinin əsrlərdir sərbəst və qarşılıqlı anlaşma şəraitində yaşadıqlarını, xalqımızın onların dilinə, dininə, mədəniyyətinə daim yüksək qiymət verdiyini və hörmətlə yanaşdığını, Prezident İlham Əliyev tərəfindən mütəmadi olaraq İslam və qeyri-İslam dini icmalarına maliyyə yardımı ayrıldığını qeyd edib.

Sədr müavini görüş iştirakçılarının diqqətini 44 günlük Vətən Müharibəsindəki parlaq qələbəmiz nəticəsində işğaldan azad edilmiş tarixi torpaqlarımızdakı erməni vandalizmi faktlarına çəkərək vurğulayıb ki, Ermənistanın təcavüzkar siyasətinin qurbanları təkcə insanlarımız yox, həm də tarixi-dini abidələrimizdir. Ermənilər dini abidələrimizə qarşı misli görünməmiş vəhşiliklər törədiblər, 67 məsciddən yalnız ikisi - Şuşa şəhərindəki "Yuxarı Gövhər Ağa" məscidi və qismən Ağdam Cümə məscidi qismən salamat qalıb. İşğalçılar qədim alban məbədlərimizə qarşı isə özününküləşdirmə siyasəti yürüdüblər. Ermənistandan fərqli olaraq Bakıdakı erməni kilsəsi dövlət tərəfindən təmir edilərək qorunur. O, əsarətdən xilas olan abidələrimizin bərpa edilməsi prosesinə start verildiyini, yer üzündən silinmiş Zəngilan məscidinin əsasının qoyulduğunu da bildirib.

Daha sonra Gündüz İsmayılov iştirakçıları maraqlandıran sualları cavablandırıb.

Qeyd edək ki, BBMM təşkilatçılığı ilə keçirilən "Müharibə cinayətləri mədəni irsə qarşı: Qarabağ münaqişəsinin tarixi kontekstində" adlı XI Beynəlxalq Multikulturalizm Qış Məktəbinə Azərbaycan multikulturalizmi haqqında biliklərini genişləndirməkdə maraqlı olan 20-dən çox tələbə və tədqiqatçı qatılıb.

# DÖVLƏT KOMİTƏSİ ABŞ BEYNƏLXALQ DİNİ AZADLIQLAR KOMİSSİYASININ ÇAĞIRIŞINA MÜNASİBƏT BİLDİRİB

"Son günlər dövlətimizin din siyasəti ilə bağlı bəzi xarici kütləvi informasiya vasitələri tərəfindən yayılmış qərəzli məlumatlarla əlaqədar qeyd etmək istərdik ki, Azərbaycan mənsubiyyətindən asılı olmayaraq, öz dini-mədəni irsinə tarixən formalaşmış birgəyaşayış ənənələri, eləcə də beynəlxalq hüquq normalarına uyğun olaraq hörmətlə yanaşır".

Bunu APA-ya açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdiri Əli Həziyev ABŞ Beynəlxalq Dini Azadlıqlar Komissiyasının sədrinin çağırışına münasibət bildirərkən deyib.

"Əlbəttə ki, bu, böhtan xarakteri daşıyır. Hamımız bilirik və dünya ictimaiyyəti də xəbərdardır ki, Azərbaycan daim dini mənsubiyyətindən asılı olmayaraq, bütün dini-tarixi abidələri qoruyub, onların orjinallığını saxlayıb. Azərbaycan əhalisinin əksəriyyətinin müsəlman olmasına baxmayaraq, burada tarixən formalaşmış kilsələrin qalması buna sübutdur. Xristianlığın bütün cərəyanlarına aid olan, o cümlədən də Erməni Qriqoryan kilsəsi minlərlə qədim əlyazma ilə birlikdə uzun illər davam etmiş münaqişəyə rəğmən Bakının mərkəzində qorunub saxlanılır. Vaxtilə Bakıda səfərdə olmuş ermənilərin katalikosu da bunun şahidi olub. Azərbaycanın dövlət siyasəti multikulturalizm, tolerantlıq prinsiplərinə söykənir", - o bildirib.

Şöbə müdirinin sözlərinə görə, Azərbaycanın müstəqillik tarixində heç bir dini-mədəni abidənin dağıdılması və ya dəyişdirilməsi faktı qeydə alınmayıb: "44 günlük Vətən müharibəsi müddətində belə Azərbaycan Silahlı Qüvvələri tərəfindən düşmənin mülki obyektlərinə, habelə dini təyinatlı binalara hər hansı hücum əməliyyatı həyata keçirilməyib. Bu faktı xarici jurnalistlər də dəfələrlə təsdiqləyiblər.

Təəssüf ki, nədənsə Azərbaycanı ittiham edənlər Ermənistanın 30 ilə yaxın müddət ərzində işğal altında saxladığı və BMT tərəfindən tanınan Azərbaycan ərazilərində, eləcə də bugünkü Ermənistan ərazisində etnik təmizləmə və soyqırımı həyata keçirməsi, Azərbaycan toponimlərini erməniləşdirməsi, yüzlərlə tarixi-mədəni abidələrlə yanaşı, məscid və ziyarətgahları dağıtması və yarıuçuq məscidlərdə heyvan saxlamaqla dini dəyərləri təhqir etməsi, eləcə də Qafqaz Albaniyası mədəni irsinə və pravoslav kilsəsinə aid olan xristian məbədlərində saxtalaşdırma işləri görərək qriqoryanlaşdırmasına göz yumurlar".

Əli Həziyev diqqətə çatdırıb ki, işğaldan azad olunmuş ərazilərdə vaxtilə 67 məscid olub, lakin onun sadəcə 2-si qalıb: "Biri nisbətən salamat vəziyyətdədir, digərini də fars məscidi adı altında təmir etdiriblər. Bu da bir növ Azərbaycan irsinin silinməsi, tarixin saxtalaşdırılması aktıdır.

Hərbi əməliyyatlar bitdikdən dərhal sonra Azərbaycan hökuməti tərəfindən işğaldan azad olunmuş ərazilərdəki Ermənistan Silahlı Qüvvələri tərəfindən dağıdılmış bütün dini abidələrin bərpa ediləcəyi bəyan edilib, həmin ərazilərin sosial-iqtisadi inkişaf planının hazırlanması üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına əsasən, "Böyük Qayıdış" proqramı əsasında bərpa prosesi başladılıb. Eyni zamanda, Azərbaycan tərəfindən müxtəlif kürsülərdən ən yüksək səviyyədə dəfələrlə bildirilib ki, bütün ölkə miqyasında olduğu kimi, Ermənistan işğalından azad edilmiş ərazilərimizdəki tarixi-dini abidələr Azərbaycan irsinə aiddir və onların qorunması Azərbaycan dövlətinin öhdəliyidir. Bu baxımdan hazırda azad edilmiş ərazilərdəki məscidlər və kilsələrin bərpa və yenidənqurma işlərinin aparılması qeyd edilənlərin əyani təcəssümüdür. Misal olaraq, Şuşada məscidlərlə yanaşı iki kilsənin bərpasına başlanılıb. Bu, Azərbaycanın abidələrə qarşı fərq qoymadığını, əksinə müxtəlif mədəniyyətlərə və dinlərə hörmətini, bütün dini nümunələri milli-mənəvi dəyərlərinin bir parçası kimi gördüyünü göstərir. Ümumiyyətlə isə hesab edirik ki, mənsubiyyətindən asılı olmayaraq dini-mədəni irs bütöv bəşəriyyətə məxsusdur.

Lakin bütün bunlara dünya ictimaiyyəti göz yumub, bunun əvəzində isə Ermənistana xidmət edən kampaniyalara qoşulurlar".

Dövlət Komitəsinin rəsmisi qeyd edib ki, ermənilərin törətdiyi bu cinayətlər təkcə işğaldan azad edilmiş zona ilə kifayətlənməyib: "Tarixi Azərbaycan torpağı olan indiki Ermənistan ərazisində də yüzlərlə tarixi bina dağıdılıb və ya saxtalaşdırılaraq başqa bir məbəd kimi təqdim olunmaqdadır. Məsələn, Sərdar məscidi, Şah Abbas məscidi və digər məscidləri göstərmək olar. İrəvandakı Göy Məscid isə bu gün fars məscidi kimi təqdim olunur. Halbuki, o da tarixi Azərbaycan məscididir.

Bir sözlə, Azərbaycan Ermənistandan fərqli olaraq, tarixi-mədəni irsinə dini və etnik zəmində ayrı-seçkilik etmir və Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında 1954-cü il Haaqa Konvensiyası da daxil olmaqla, beynəlxalq konvensiyalar üzrə öhdəliklərinə sadiqdir. Təəssüf ki, eyni fikri təcavüzkar və inkar siyasəti yürüdən qarşı tərəf barədə demək olmur. Çünki onlar uzun illər ərzində tarixi-mədəni irsimiz üzərində dəyişikliklər etmək və onun mənşəyini saxtalaşdırmaqla sözügedən Konvensiya ilə bərabər "Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt", "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyası və s. beynəlxalq norma və standartların tələblərini kobud surətdə pozublar. Lakin beynəlxalq ictimaiyyətin bu vəziyyətə həssaslıq göstərməməsi məyusluq doğurur".

Xatırladaq ki, ABŞ Beynəlxalq Dini Azadlıqlar Komissiyasının sədri Azərbaycan hökumətinə ibadət yerlərini, digər dini və mədəni obyektləri qoruyub saxlamağa dair çağırış edib.

# AZƏRBAYCAN ALBAN-UDİ XRİSTİAN DİNİ İCMASI AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏKİ ALBAN MƏBƏDLƏRİ İLƏ BAĞLI BƏYANAT YAYIB

Azərbaycan Alban-Udi xristian dini icması azad olunmuş ərazilərdəki alban məbədləri ilə bağlı bəyanat yayıb.

"Biz – Alban Apostol Kilsəsinin varisi olan Azərbaycan Alban-Udi dini icması işğaldan azad olunmuş ərazilərdə son bir ildə tarixi-dini abidələrin, o cümlədən xristian alban irsinə aid məbədlərin qorunması və bərpası istiqamətində həyata keçirilən ardıcıl tədbirləri yüksək qiymətləndirərək dəstəkləyir, Azərbaycan dövlətinin iradəsi və əzmi sayəsində bu prosesin mümkün qədər qısa vaxtda uğurla başa çatacağına inamımızı ifadə edirik.

Eyni zamanda, bəyan edirik ki, ciddi mina təhlükəsinin olmasına, çətin yolsuzluq şəraitinə baxmayaraq, Alban-Udi dini icmasının üzvlərinin işğaldan azad olunmuş ərazilərdəki tarixi alban məbədlərini ziyarət etmələri üçün bütün zəruri tədbirlər həyata keçirilib. Nəticədə biz udilər son bir ildə Alban Apostol Kilsəsinin mənəvi varisləri kimi işğaldan azad olunmuş Laçındakı Ağoğlan, Kəlbəcərdəki Xudavəng monastırlarını, eləcə də Hadrut qəsəbəsi və Tuğ kəndindəki alban məbədlərini dəfələrlə ziyarət edə bilmişik.

Qeyd edək ki, Qafqazda Xristianlığın rəsmi din kimi strukturlaşmasının tarixi Alban kilsəsindən başlayır. Qədim qaynaqlar sübut edir ki, tək Azərbaycanın deyil, bütün Qafqazın dini-mədəni həyatında silinməz izlər qoymuş Alban kilsəsi xristian dünyasında ən qədim kilsələrdən biridir və apostol mənşəlidir. Alban kilsəsinin qədimliyini təkcə tarixi faktlar yox, həm də mövcudluğunu dövrümüzə qədər qoruyub saxlamış qədim alban məbədləri təsdiqləyir.

Təəssüf ki, müxtəlif təzyiq və təsirlərdən sonra 1836-cı ildə Alban Apostol Kilsəsi ləğv edilib, onun maddi və mənəvi irsinin bir qisminə Erməni Qriqoryan Kilsəsi sahib çıxmağa çalışıb. Nəticədə Azərbaycanda, xüsusilə Qarabağda tarixi alban məbədlərinin böyük bir qismi qriqoryanlaşdırılıb, tarixi abidələrimizlə yanaşı, arxiv materialları və sənədlər saxtalaşdırılıb. Alban irsinin, o cümlədən yaşı yüz illərlə, hətta min illərlə ölçülən Alban məbədlərinin qriqoryanlaşdırılması son yüz ildə Ermənistanın dövlət siyasətinə çevrilib. Bunun nəticəsidir ki, indiki Ermənistan ərazisində və Azərbaycanın işğal edilmiş torpaqlarında bir dənə də olsun alban məbədi saxlanılmayıb. Ermənistan ya Alban məbədlərinin arxitekturasını dəyişdirərək qriqoryanlaşdırıb, ya da arxitekturasını dəyişdirə bilmədiyi məbədləri dağıdıb.

Azərbaycan müstəqilliyini bərpa etdikdən və ölkəmizdə vicdan azadlığı tam təmin olunduqdan sonra Alban Apostol Kilsəsinin statusunun bərpası və üzləşdiyimiz ədalətsizliyin aradan qaldırılması üçün tarixi fürsət yaranıb. Udi ziyalılarının təşəbbüsü ilə 2003-cü ildə Alban-Udi xristian icması yaradılıb və dövlət qeydiyyatından keçib. Dini icmanın qeydiyyatı Alban apostol avtokefal kilsəsinin dirçəldilməsi yolunda ilk addımdır. Azərbaycan hökumətinin dəstəyi ilə Şəki rayonu, Kiş kəndində yerləşən və Qafqazda "kilsələrin anası" hesab olunan apostol Yelisey məbədi bərpa edilib, 2006-cı ildə isə udilərin kompakt halda yaşadığı Qəbələ rayonu, Nic qəsəbəsindəki "Çotari" Alban-udi kilsəsinin rəsmi açılışı olub.

Təbii ki, Alban-Udi xristian icmasının dirçəldilməsi və alban abidələrinin bərpası tarixi ədalətsizliyin aradan qaldırılması, ölkəmizdəki tolerantlıq mühitinin qorunub-saxlanılması baxımından təkcə Azərbaycan deyil, həm də bütün xristian dünyası üçün mühüm əhəmiyyət kəsb edir. Biz udilər Alban Apostol Kilsəsinin mənəvi varisləri olaraq Qəbələ və Oğuzdakı alban məbədləri kimi, işğaldan azad edilmiş ərazilərimizdəki digər alban məbədlərinin də yüksək səviyyədə bərpa olunacağına inanırıq.

Eyni zamanda, Azərbaycan xalqının tolerantlığı, Azərbaycan dövlətinin bütün dinlərin nümayəndələrinə olan qayğısı və dəstəyi onu deməyə əsas verir ki, Erməni Qriqoryan Kilsəsinin mənsublarına da humanist münasibət göstəriləcəkdir. Bu hörmətin bariz nümunəsi Bakı şəhərinin mərkəzində yerləşən Azərbaycan hökuməti tərəfindən qorunub-saxlanılmış, bərpa olunmuş "Müqəddəs Qriqori" erməni kilsəsidir. Əsrlərboyu erməni Qriqoryan Kilsəsinin təsir və təzyiqlərinə, mənimsəmə və saxtalaşdırmaqla Alban irsinə böyük zərbə vurmasına baxmayaraq, sülh və insanlıq naminə biz də Erməni Qriqoryan Kilsəsi ilə əməkdaşlığa, işğaldan azad edilmiş ərazilərdə birgə yaşamağa hazır olduğumuzu bildiririk".

## AZƏRBAYCANDA APOSTOL NUNSİSİ TƏYİN EDİLİB



"Vatikan xəbərləri" saytı xəbər verir ki, Papa Fransisk Kesariyya Mavritanski titulyar arxiyepiskopu monsenyor Marek Solçinskini Azərbaycan Respublikasında Apostol nunsisi təyin edib.

Polşa mənşəli prelat 1961-ci ildə anadan olub, Varşavada keşiş hüququ qazanıb, Papa Qriqori Universitetində kanonik hüquq sahəsində doktorluq dissertasiyası müdafiə edib. 1993-cü ildə Papa Kilsə Akademiyasında təhsilini bitirəndən sonra Müqəddəs Taxt-Tac yanında diplomatik xidmətə başlayıb və 2012-ci ildə Müqəddəs Pyort bazilikində Papa XVI Benediktdən yepiskop xirotoniyasını qəbul edib. Monsenyor Solçinski Paraqvayda, Rusiya Federasiyasında, Birləşmiş Millətlər Təşkilatında, ABŞ-da, Türkiyədə, Çexiyada və İspaniyada Papanın nümayəndəliklərində işləyib. 2011-ci ildə Gürcüstan, Azərbaycan, Tanzaniya və Ermənistanda Apostol nunsiaturlarının rəhbəri olub, 2022-ci il fevralın 2-dən Türkiyədə Apostol nunsisidir.

Vatikan diplomatı polyak, ingilis, fransız, italyan, rus, ispan və çex dillərini bilir.

## İORDANİYADA 9 MİN İL ƏVVƏLƏ AİD ZİYARƏTGAH TAPILIB

İordaniyalı və fransız arxeoloqlardan ibarət ekspedisiya İordaniyanın Şərqi Səhra bölgəsindəki neolitik arxeoloji məkanında 9 min il əvvələ aid ziyarətgah tapıb.

Petra agentliyi xəbər verir ki, qədim ibadət kompleksində mövcud olmuş və Neolit dövrünə aid düşərgədə heyvanların, o cümlədən vəhşi ceyranların saxlanıldığı yer də aşkarlanıb. Uzun daş divarlardan ibarət olan bu tikililərin minilliklər boyu öz görkəmini qoruyub saxlaması arxeoloqların təəccübünə səbəb olub.

Ziyarətgahın içərisində antropomorfik fiqurları olan iki oyma dayanıqlı daş, birində heyvan və quş təsvirləri, həmçinin qurbangah, ocaq və ceyran tələsinin miniatür maketi var. Arxeoloqlar bildiriblər ki, ziyarətgah Neolit dövründə insanların məşğuliyyəti, məişəti və mədəniyyətinin tədqiqində yeni səhifə açır. Bu tapıntı göstərir ki, həmin dövrdə insanların əsas məşğuliyyət növü ovçuluq olub və onlar öz



qənimətlərini qayaüstü rəsmlərdə əks etdiriblər.

İordaniyanın Əl Hüseyn Bin Talal Universiteti və Fransanın Yaxın Şərq İnstitutunun arxeoloqlarının bu ərazidə apardıqları qazıntı işləri davam edir.

## VATİKAN TARİXDƏ İLK DƏFƏ OLARAQ BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNDƏ SƏFİRLİYİNİ AÇIB



Vatikan tarixdə ilk dəfə olaraq Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) səfirliyini açıb. Təntənəli mərasimə Vatikanın dövlət katibinin müavini, arxiyepiskop Edqar Penya Parra rəhbərlik edib. Bu barədə "catholicnewsagency" məlumat verib.

Penya Parra çıxışında bu sözləri deyib: "Papa Fransisk səmimi qəlbdən ümid edir ki, bu yeni bina papanın nümayəndəsinə Birləşmiş Ərəb Əmirliklərində və yerli katolik icmasında mənəvi missiyasında kömək edəcək".

Apostol nunsiaturası Müqəddəs Taxt-Tacın mülki hökumətdə təyin olunmuş papa leqatı - nunsinin rəhbərlik etdiyi diplomatik missiyasıdır. Vatikan BƏƏ ilə 2007-ci ildə diplomatik əlaqələr qurub. 2007-ci ildən bəri BƏƏ-də üç apostol nunsisi fəaliyyət göstərib. BƏƏ-də hələlik Müqəddəs Taxt-Tacın daimi səfiri yoxdur. Monsenyor Krispin Dubiel nunsiaturanın müvəqqəti işlər vəkili kimi fəaliyyət göstərir.

Qeyd edək ki, Əbu-Dabidə apostol nunsiaturasının açılışı 4 fevral 2019-cu ildə Papa Fransisk və Əl-Əzhərin Böyük İmamı Əhməd əl-Tayebin imzaladığı "Ümumdünya Sülh və Birgə Yaşayış naminə İnsanların Qardaşlığına dair Sənəd"in üçüncü ildönümünə təsadüf edir. Penya Parra açılış mərasimində bu sənədin "diplomatik əlaqələrimizin dərinləşməsi üçün möhkəm əsas rolunu oynayacağına" ümid etdiyini bildirib.

BƏƏ-nin rəsmi inancı İslamdır. "Pew Research" sosioloji mərkəzinin məlumatına görə, xristianlar hazırda ölkə əhalisinin 12,6%-ni təşkil edir. BƏƏ-nin katolik adət-ənənələrini və rituallarını qoruyan azsaylı prixodları Yaxın Şərq və Cənubi Asiyadakı bütün dindaşlarına xidmət göstərir. Məsələn, Müqəddəs İosif Kafedralının 100 minə yaxın qürbətçi mənsubu var. Onlar üçün ibadətlər ərəb, ingilis, fransız, filippin, malayalam, sinhala, urdu, tamil, konkani, alman, italyan, Koreya, polyak və Ukrayna dillərində həyata keçirilir. Kafedral 2015-ci ildə Müqəddəs Pavel məbədi açılana qədər 50 ildən çox Əbu-Dabidə yeganə katolik kilsəsi olub.

# RƏQƏMSAL CƏMİYYƏT VƏ DİNİ FƏALİYYƏT

İnformasiya texnologiyalarının sürətli inkişafı ictimai həyatın bütün sahələrinə ciddi təsir göstərir. Qabaqcıl təcrübələrə əsaslanan keyfiyyətli və təhlükəsiz rəqəmsallaşma, bu istiqamətdə informasiya resurslarından səmərəli istifadə innovasiyaların tətbiqində aparıcı yer tutur. Cəmiyyətin bütün sahələrində olduğu kimi, dini münasibətlər sferasına da rəqəmsallaşmanın təsirinin araşdırılması və öyrənilməsi aktuallıq kəsb edir. Bu məsələ ilə bağlı elmi tədqiqatçılar, din xadimləri və başqalarının iştirakı ilə geniş müzakirələr aparılır. Hazırda dünyada "rəqəmsal din" anlayışı geniş yayılmışdır. Son illər elmi nəşrlərdə "rəqəmsal din", onun mahiyyəti, sosial fəlsəfi və sosioloji tərəflərinə dair araşdırmaların sayı çoxalmışdır. Mütəxəssislər rəqəmsal dinin virtual məkanla dini praktikanı birləşdirən körpü olduğunu bildirirlər.

Qeyd edək ki, 1980-ci illərdən etibarən, əsasən Qərb ölkələrində dinlə internet arasında təmas artmağa başlayır və onlayn qruplar, forumlar çərçivəsində dini müzakirələr aparılır. İnternetin vizual imkanlarının genişlənməsi (interaktiv elementlər, podkastlar, audio və videolar) nəticəsində dini saytların sayı çoxalır. 1990-cı ilin əvvəllərindən isə dini sahəyə dair rəqəmsal xidmətlərdən digər dünya dövlətlərində də istifadə olunur. Dini sahə ilə bağlı internet resurslarında ilk dövrlərdə əsasən dini mətnlərin yerləşdirilməsi üstünlük təşkil edirdi. Sonralar internetin funksional imkanlarının daha da genişlənməsi dini ayinlərin onlayn formatda həyata keçirilməsinə gətirib çıxardı. 2000-ci illərdən başlayaraq, internet dini tələbatların yerinə yetirilməsi və dini təbliğat üçün əlverişli platforma kimi çıxış etməyə başladı. Əgər əvvəllər dini ayinlərin onlayn icrasına qeyri-ciddi şəkildə yanaşılırdısa, sonralar buna rəqəmsallaşmanın təzahür formalarından biri kimi baxıldı.

Rəqəmsal cəmiyyət dinə dair informasiya mübadiləsinin dinamikliyi və dini onlayn mühitin özünəməxsus cəhətləri ilə səciyyələnir. İnternet şəbəkəsində informasiyaya əlçatanlıq tez bir vaxtda təmin olunur. Rəqəmsal formatda informasiya proseslərinin dinamikliyi dini konfessiyalar arasındakı münasibətlərə keyfiyyətcə yeni xüsusiyyətlər gətirir.

İnternet dinlərarası dialoqun genişlənməsini sürətləndirməklə yanaşı, dini şüurun konstruktiv istiqamətdə formalaşmasına mənfi təsir göstərən, dini kimliklə uzlaşmayan meyillərin də yaranmasına səbəb olur. Ona görə də dini sahəyə təhdidlərin qarşısının alınması üçün informasiya təhlükəsizliyinin təmin olunması vacib məsələlərdən biridir. Dini konfessiyalar internetdən istifadə etməklə mənsub olduqları dini və onun müqəddəs kitablarını təbliğ edir, dini ayinlər keçirir və s. Din xadimlərinin əksəriyyəti internetə dini fəaliyyəti təmin edən əhəmiyyətli məkan, bəşər sivilizasiyasının mənəvi dünyasını əks etdirən vasitələrdən biri kimi baxırlar.

Burada bir məqamı da qeyd etməliyik ki, vicdan və dini etiqad azadlığından internetdə bəzən sui-istifadə edilir. Dini ekstremist qruplar internet şəbəkəsində dini düşmənçilik, radikalizm və fanatizm zəminində qarşıdurmalar yaratmağa cəhd göstərir. Dini ekstremizm nəinki regional, həm də beynəlxalq səviyyədə dini təhlükəsizlik üçün təhdidlər yaradır. Bəzi hallarda internet resursları dini ekstremist xarakterli haker hücumlarına məruz qalır. Buna görə də internet şəbəkəsində dini təfriqə yaradan materialların yayılmasının qarşısının alınması və kibertəhlükəsizliyin gücləndirilməsi məqsədilə daha səmərəli vasitələrin tətbiqi vacibdir.

Qloballaşma dövründə rəqəmsallaşmadan irəli gələn çağırışlar dini fəaliyyət sahəsinə mühüm təsir göstərir. Sosial şəbəkələr və messencerlər kimi onlayn platformalarda dini inanclar haqqında məlumatlar verilir, dini məsələlər müzakirə olunur. Dini qurumlar tərəfindən elektron media, informasiya-analitik portallar, internet-nəşrlər və veb-saytları yaradılır.

Azərbaycanda fəaliyyət göstərən dini qurumların əksəriyyəti internet şəbəkəsindən fəal şəkildə istifadə edir. Məlumdur ki, son illər COVID-19 pandemiyasının yayılması dünya dövlətlərində olduğu kimi, ölkəmizdə də dini sahədə karantin rejiminin tələblərindən irəli gələrək müəyyən məhdudiyyətlərin tətbiq edilməsinə səbəb olmuşdur. Bu isə dini konfessiyaların sosial şəbəkələrdə (Facebook, Instagram və s.) və messencerlərdə (Viber, Whatsapp, Telegram), onlayn tanışlıq və şəbəkə proqramlarında (Tinder və s.) fəaliyyətini gücləndirmişdir. Smartfonların və mobil internetin inkişafı elə yüksək səviyyəyə çatmışdır ki, istənilən şəxs "Google Play", "Windows Phone Store", "iTunes" və digər resurslardan dini xarakterli mobil tətbiqləri yükləyə bilir. Müşahidələr və təhlillər göstərir ki, virtual ünsiyyət nəinki gənclər, həm də orta və yaşlı nəsil arasında da geniş yayılmışdır. Təbii ki, bu, bir tərəfdən pandemiya ilə əlaqədardırsa, digər tərəfdən virtual məkanda sürətli kommunikasiya, istənilən dini məlumatın asanlıqla əldə edilməsi ilə bağlıdır.

Dini qurumların nümayəndələri internetə müasir yayım vasitəsi kimi baxır və dini təcrübəni bölüşmək üçün onun əlverişli məkan olduğunu bildirirlər. Dini saytlarda dinlər haqqında məlumatlar, dini məsələlərə dair sual-cavablar və s. öz əksini tapır. Din xadimləri internet vasitəsilə istifadəçilərin suallarını cavablandırır, müqəddəs bayramlar və mərasimlər haqqında məlumatlar verirlər. Saytlara daxil olan istənilən şəxs maraqlandığı dini qurumun fəaliyyəti haqqında məlumatlar əldə edə bilər.

Dinin rəqəmsallaşmasını şərtləndirən vacib faktorlar içərisində cəmiyyətin müasir inkişaf səviyyəsindən irəli gələn çağırışlar mühüm yer tutur. Fərqli dini etiqadların yayılmasında və dinlərarası dialoqun genişlənməsində internetin rolu getdikcə artır. Qeyd edək ki, ölkəmizdə müxtəlif dinlərin nümayəndələri mənsub olduqları dinlərin təbliği məqsədilə internetin imkanlardan geniş şəkildə istifadə edirlər. Hər kəs internet vasitəsilə maraqlandığı dinin əsasları ilə tanış ola, müqəddəs dini kitabları oxuya, dini ibadət yerlərinə virtual ekskursiya edə bilər.

Azərbaycanda rəqəmsal cəmiyyətin inkişafı istiqamətində məqsədyönlü dövlət siyasəti aparılır. Dövlət orqanlarında (qurumlarında) elektron xidmətlərin həyata keçirilməsində rəqəmsal texnologiyaların və innovativ həllərin tətbiqi bu siyasətin əsas istiqamətlərindəndir. "Açıq hökumət"in təşviqi internet istifadəçilərinin sayını artırır, ictimai əhəmiyyət daşıyan məlumatların açıqlığı və informasiya əldə etmə azadlığı təmin edilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" 14 mart 2018-ci il tarixli Fərmanı və "Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi" haqqında 27 aprel 2021-ci il Fərmanı rəqəmsal cəmiyyətin inkişafı üçün böyük əhəmiyyət daşıyır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də Azərbaycan Respublikası Prezidentinin fərmanlarından və Nazirlər Kabinetinin qərarlarından irəli gələrək, elektron xidmətə keçid sahəsində üzərinə düşən vəzifələri yerinə yetirir. Məsələn, "İdarələrarası elektron sənəd dövriyyəsi sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 4 sentyabr 2012-ci il tarixli Fərmanından irəli gələrək, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi idarələrarası elektron sənəd dövriyyəsi sisteminə qoşulmuşdur. "Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 sentyabr tarixli Fərmanına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən Dövlət xidmətlərinin Elektron Reyestri yaradılmışdır. Bu reyestrdə dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və video materialların, mal və məmulatların və dini məzmunlu başqa məlumat materiallarının satışı üzrə ixtisaslaşdırılmış satış məntəqələrinin yaradılması ilə əlaqədar razılığın verilməsi üçün müraciətin və sənədlərin qəbulu; dini ibadət yerlərinin tikintisinin və yenidən qurulmasının məqsədəuyğunluğu barədə rəy verilməsi; dini mərkəzlər və idarələr, dini-təhsil müəssisələrinin dövlət qeydiyyatı; dini tədris müəssisələrinin fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) verilməsi üçün rəy bildirilməsi; dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və video materialların, mal və məmulatların və dini məzmunlu başqa məlumat materiallarının istehsal, idxal, ixrac edilməsinə, habelə sərbəst yayılmasına razılığın verilməsi üçün müraciətin və sənədlərin qəbulu; dini qurumların dövlət qeydiyyatına alınması üçün müraciətin və sənədlərin qəbulu; Azərbaycan Respublikasında dini qurumların dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə dini qurumun ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunması ilə bağlı müraciətlərin qəbulu və dərcolunma faktını təsdiq edən sənədin verilməsi və s. öz əksini tapır. Bütün bunlar sübut edir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi öz fəaliyyətində müasir dövrün çağırışlarını nəzərə alır və dini sahə ilə bağlı rəqəmsal xidmətlərin inkişafına böyük əhəmiyyət verir.

Yuxarıda göstərilənlərin ümumiləşdirilməsindən aydın olur ki, rəqəmsal cəmiyyət müasir informasiya texnologiyalarının tətbiqi və istifadəsi, ictimai münasibətlərin virtual məkanda öz əksini tapması ilə səciyyələnir. Rəqəmsal texnologiyalar iş prosesində operativliyin artırılmasını və qarşıda dayanan vəzifələrin daha səmərəli, çevik vasitələrlə yerinə yetirilməsini şərtləndirir. İnternet həm də dini tələbatları təmin edən rəqəmsal məkan kimi geniş auditoriyaya malikdir. Dini qurumlar öz fəaliyyətlərində internetin imkanlarından istifadə edirlər. Təəssüf ki, bəzən vicdan və dini etiqad azadlığından sui-istifadə olunaraq sosial şəbəkələrdə dini ekstremizmə rəvac verən radikal baxışlar təbliğ edilir. Buna görə də internetdə dini sahə ilə bağlı informasiya təhlükəsizliyinin təmin edilməsi vacib məsələlərdən biridir.

**Vüqar Səlimov**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ümumi şöbəsinin müdiri vəzifəsini icra edən, fəlsəfə üzrə fəlsəfə doktoru*

# İRLANDİYADA ÖLKƏNİN SƏMAVİ HİMAYƏDARI MÜQƏDDƏS BRİGİTTA ADINA DÖVLƏT BAYRAMI TƏSİS EDİLİB

İrlandiya Respublikası hökuməti ölkənin səmavi himayədarı olan Müqəddəs Brigittanın rəsmi bayramını təsis edib. 2023-cü ildən etibarən bayram fevralın ilk bazar ertəsi və ya fevralın 1-də cümə günü qeyd olunacaq. Bu barədə "catholicnewsagency" xəbər verib.

Katolik və pravoslav müqəddəs Kilderli Brigitta İrlandiyanın himayədarı hesab edilir. Pravoslav ənənəsinə görə, Möhtərəm Brigitta Kilder iqumeniyası və İrlandiya şahzadəsidir. Onun kilsə bayramı fevralın 1-nə təsadüf edir.

Müqəddəs Brigitta adına ümummilli bayramın elan edilməsi xəbəri Kilderin katolik və anqlikan ruhaniləri tərəfindən xüsusi sevinclə qarşılanıb. Baş nazirin müavini Leo Varadkar açıqlamasında bildirib: "Gələn ildən fevralın əvvəlində İrlandiyada Müqəddəs Brigitta gününə həsr olunmuş əlavə dövlət bayramı keçiriləcək. Bu, qadının şərəfinə keçirilən ilk İrlandiya dövlət bayramı olacaq. O, qış gündönümündən gecə-gündüz bərabərliyinə, yazın başlanğıcına və kelt yeni ilinə qədər olan dövrü göstərir".

Müqəddəs Brigittanın həyatı haqqında etibarlı məlumat az qorunub saxlanılmışdır. Brigitta təkcə möcüzələri ilə deyil, həm də xeyirxahlığı və mərhəməti ilə məşhurdur: o, heç kimə kömək əlini uzatmaqdan imtina etmir, kasıblara səxavətlə yemək, xəstələrə şəfa verir. Deyilənə görə, təxminən 468-ci ildə Brigitta Xristianlığı qəbul etmiş və 480-ci ildə Kilder şəhərində ("Cill Dara" palıdın yanındakı kilsə deməkdir) bir monastır qurmuşdur. Burada druidlərin hörmət etdiyi nəhəng palıd ağacı ucalır. Monastır əslində kelt ilahəsi Brigittanın ziyarətgahında tikilmişdir.

# AZƏRBAYCANDAKI DİNİ KONFESSİYA RƏHBƏRLƏRİ XOCALI SOYQIRIMI İLƏ BAĞLI BEYNƏLXALQ İCTİMAİYYƏTƏ MÜRACİƏT EDİBLƏR

"Biz, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri XX əsrin qanlı faciələrindən biri olan, insanlıq əleyhinə ən ağır hərbi cinayətlər sırasında yer alan Xocalı soyqırımının 30-cu ildönümü ərəfəsində dünya ictimaiyyətinə müraciət edirik.

Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü zamanı Ermənistan hərbiçiləri tərəfindən dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş hərbi cinayətlərin ən dəhşətlisidir. Bu qətliamdan bir neçə gün əvvəl - 1992-ci il fevralın 17-də Ermənistan silahlı birləşmələri Azərbaycanın Xocavənd rayonunun Qaradağlı kəndində yerli azərbaycanlı əhalini kütləvi qırğına məruz qoymuş və öz cinayətlərini misli görünməmiş qəddarlıqla davam etdirərək, fevralın 25-dən 26-na keçən gecə keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərində soyqırımı törətmişlər. Ağır hərbi texnikanın tətbiqi ilə davam edən qırğınlar nəticəsində Xocalı şəhəri tamamilə dağıdılaraq yerlə-yeksan edilmiş, 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla, 613 nəfər azərbaycanlı öz milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilmişdir. Səkkiz ailə ağlasığmaz qəddarlıqla tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Azğınlaşmış hərbiçilər insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, insanları diri-diri torpağa basdırmış və ya yandırmış, meyitlərin bir qismini minalamışlar. Şaxtalı hava şəraitində əli-ayağı yalın qaçıb xilas olmaq istəyən mülki əhaliyə belə aman verilməmiş, onlar təqib edilərək yollarda, meşələrdə Ermənistan hərbi qulluqçuları tərəfindən xüsusi amansızlıqla qətlə yetirilmişlər. Bu bəşəri cinayət nəticəsində 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər girov götürülərək dəhşətli işgəncələrə məruz qalmış, meyitlər üzərində qeyri-insani təhqir və həqarətlərə yol verilmişdir. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyil.

Dünya ictimaiyyətinin diqqətinə bir daha çatdırırıq ki, Ermənistanın əsassız ərazi iddiaları və təcavüzkar siyasəti nəticəsində Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi 30 ilə yaxın işğal altında saxlanılmış, Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasəti, fiziki və mənəvi terror həyata keçirilmiş, bir milyondan artıq insan Ermənistandakı və Azərbaycanın Qarabağ bölgəsindəki öz ata-baba torpaqlarından qovularaq qaçqın və məcburi köçkünə çevrilmiş, onların insan hüquqları kobud şəkildə pozulmuş, yüzlərlə şəhər və kənd, Azərbaycan xalqının qədim və zəngin mədəni irsi dağıdılaraq talan edilmişdir.

2020-ci ilin yay aylarından etibarən Ermənistan Azərbaycana qarşı növbəti hərbi təxribata başlayaraq "yeni torpaqlar naminə yeni müharibə" şüarı ilə Azərbaycanın müxtəlif bölgələrinə, dinc əhali və mülki infrastruktura qarşı ağır artilleriyadan istifadə etməklə işğal ərazisini genişləndirməyə cəhd göstərdi. Öz hərbi cinayətlərini və vandalizm aktlarını davam etdirən təcavüzkar erməni rejimi Ermənistan-Azərbaycan sərhədində və hərbi əməliyyatlar zonasından uzaqda yerləşən yaşayış məntəqələrimizi, o cümlədən Gəncə, Bərdə, Tərtər, Mingəçevir, Qəbələ kimi iri şəhərləri ağır artilleriya, qadağan edilmiş ballistik raketlər, fosforlu və kasetli bombalarla atəşə tutdu. Ermənistanın növbəti hərbi təxribatlarına cavab olaraq başlayan müqəddəs Vətən müharibəsində Azərbaycan beynəlxalq hüquq normalarına, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin tələblərinə uyğun olaraq əzəli torpaqlarını 30 illik işğaldan qurtardı, dünya birliyi tərəfindən tanınan sərhədləri çərçivəsində öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi.

Dünya ictimaiyyətinin diqqətinə çatdırmaq istəyirik ki, Ermənistan işğalçılıq, etnik təmizləmə və soyqırımı siyasəti ilə yanaşı, həm də 30 illik işğal zamanı Azərbaycanın dini-mədəni və tarixi irsinə qarşı mənəvi təcavüz və genosid həyata keçirmişdir. Həmin ərazilərdə yerləşən müsəlman və digər dini məbədlər, o cümlədən, rus pravoslav kilsələri, mədəni-tarixi abidələr, qəbiristanlıqlar uzun illər ərzində erməni vandalizminə, qədim Alban xristian kilsələri isə erməniləşdirmə cəhdlərinə məruz qalmışdır. Bölgədə mövcud olmuş 67 məsciddən 65-ni tamamilə dağıdan, məscidləri tövləyə çevirən, hətta orada İslamda haram buyurulan heyvanları saxlayaraq həqarətlər edən Ermənistan bütün İslam aləminin heysiyyətini təhqir etməkdən belə çəkinməmişlər. Vaxtilə Azərbaycanın inkişaf etmiş Ağdam, Füzuli, Cəbrayıl və digər böyük və abad şəhərlər, yüzlərlə qəsəbə və kəndlər Ermənistan tərəfindən xarabazarlığa çevrilərək yer üzündən silinmiş, mövcud infrastruktur tamamilə məhv edilmişdir. Hazırda buraya müşahidəçi missiyası ilə gələn xarici qonaqlar bu yerləri "Qafqazın Xirosiması", "ruhlar şəhəri" adlandırırlar. İşğal olunmuş ərazilərdə misli görünməyən "yandırılmış torpaq" siyasəti tətbiq olunmuşdur.

Müharibənin bitməsinə və təcavüzə son qoyulmasına baxmayaraq, bu günədək azad edilmiş torpaqlarda hələ də günahsız insanlar şəhid olur, çünki həm 30 illik işğal dönəmində, həm də Azərbaycan torpaqlarını tərk edərkən Ermənistan bura yüz minlərlə mina yerləşdirmişdir. Ermənistan beynəlxalq hüquqa və humanitar prinsiplərə açıq-aşkar etinasızlıq göstərərək mina xəritələrini verməkdən yayınır və ya həqiqətə uyğun olmayan saxta xəritələr təqdim edir. Müharibədən sonra erməni dini liderləri revanşist bəyanatlarla öz xalqını region üçün son dərəcə zəruri olan sülhə deyil, yeni müharibəyə çağırırlar. Ermənistan siyasi və dini dairələri beynəlxalq qurumlara və dini təşkilatlara müraciət edərək işğaldan azad olunmuş ərazilərdə Azərbaycanın guya xristian abidələrini məhv etməsi barədə yalançı və böhtan xarakterli dezinformasiyalar yayır, Qarabağda Ermənistanın törətdiyi vandalizmdən diqqəti yayındırmaq məqsədilə əsl həqiqətləri pərdələməyə çalışırlar.

Biz, dini konfessiya rəhbərləri bildiririk ki, fəaliyyət göstərdiyimiz Azərbaycanda din-dövlət münasibətləri yüksək səviyyədə tənzimlənir və bütün dinlər dövlət tərəfindən bərabər hüquqlarla təmin olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bilavasitə iştirakı və himayəsi ilə Qarabağın dirçəlişinə və yenidən qurulmasına start verilmiş, o cümlədən Ermənistan tərəfindən məhv və talan edilmiş zəngin mədəni-tarixi irsin, eyni zamanda, müsəlman və xristian məbədlərinin bərpasına və qorunmasına başlanılmışdır.

Biz beynəlxalq və dini təşkilatları, din xadimlərini işğaldan azad olunmuş ərazilərdə real vəziyyətlə, o cümlədən ölkədə mövcud olan nümunəvi tolerantlıq və multikulturalizm mühiti ilə yerində tanış olmaq məqsədilə Azərbaycana dəvət edirik. Ümidvarıq ki, müvafiq beynəlxalq təşkilatlar və ixtisaslaşdırılmış qurumlar işğaldan azad olunmuş ərazilərdə Azərbaycanın tarixi, mədəni və dini abidələrinə qarşı Ermənistanın törətdiyi vandalizm aktlarını öz gözləri ilə görərək bu qeyri-insani əməllərə düzgün qiymət verəcək və obyektiv gerçəkliyi beynəlxalq ictimaiyyətə təqdim edəcəklər.

Təəssüflə qeyd edirik ki, dünyada baş verən kütləvi zorakılıq hallarının, ekstremizmin və terror cinayətlərinin vaxtında hüquqi-siyasi qiymət almamasının arxasında bəzi siyasət və din xadimlərinin, dövlətlərin, təşkilatların həmin problemlərə münasibətindəki ikili standartlar, dini və irqi ayrı-seçkilik kimi təhlükəli meyllər dayanır. Ermənistanın Azərbaycana qarşı təcavüzü və onun nəticələrini, işğal edilmiş ərazilərdə Ermənistan tərəfindən törədilmiş vandalizm haqqında həqiqətləri bütün miqyası və dəhşətləri ilə dünya ictimaiyyətinə çatdırmaq, xüsusilə də Xocalı qətliamının soyqırımı kimi tanınmasına nail olmaq şəhidlərin ruhu qarşısında insanlıq borcumuzdur. Bu məramla bir daha müraciət edərək, dünya dini liderlərini, parlamentləri, BMT və digər beynəlxalq təşkilatları Holokost, Xatın, Srebrenitsa və digər bəşəri cinayətlər kimi, Xocalı soyqırımına da ədalətli və obyektiv hüquqi-siyasi qiymət verilməsinə dəstək olmağa çağırırıq.

Azərbaycandakı dini konfessiyalar regionumuzda hər hansı hərbi aqressiyaya, müharibə və nifrət çağırışlarına, dini və etnik dözümsüzlüyə, revanşizm meyillərinə son qoyulmasına, dövlətlər və xalqlar arasında mehriban qonşuluğun, sülhün və əmin-amanlığın bərqərar edilməsinə tərəfdar olduğunu bəyan edir. Biz bir daha dünya dini liderlərini, beynəlxalq təşkilatları, parlamentləri və dünya ictimaiyyətini bu uca məqsədlər naminə səfərbər olmağa, xüsusilə də Erməni Apostol Kilsəsini bəşəri dəyərləri, sülh və barışıq ideallarını təbliğ etməyə dəvət edirik.

Qoy Uca Yaradan hamımıza savab əməllərdə və ədalətli olmaqda yardımçı olsun! Amin!

**Şeyxülislam Allahşükür Paşazadə,** Qafqaz Müsəlmanları İdarəsinin sədri
**Arximandrit Aleksiy,** Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi
**Milix Yevdayev,** Dağ Yəhudiləri İcmasının rəhbəri
**Robert Mobili,** Azərbaycandakı Alban-udi Xristian Dini İcmasının sədri
**Aleksandr Şarovski,** Azərbaycandakı Avropa Yəhudiləri İcmasının rəhbəri".

# ÇAY ÇAĞIRIR

Çay çağırır, səsi ilə. Ölüm və həyatın vəhdət təşkil etdiyi çay...

Səsi, əzəməti dağları parçalayan həlim su...

Sudan yaranan insan əsası ilə bir daşa daxil oldu və su fışqırdı. Xardal zərrəsinin qayalıqda olduğu kimi xardal əriyərək həlimliyi ilə qayanı parçalayır. Əmməlləri xardal zərrəsi olan insan, su zərrəsi olaraq dağları dəldin.

Çayın səsi – həyatın simgəsi, çayın səsi – qəzəbin dəhşətidir. Çayın səsi sevdirər və qorxudar. Çay dirildər və öldürər. Çay axar sudur. Hərəkətdə – feildədir. Bir an



durmaz. Təkrar olunmaz. Çay alar, verər, aparar, gətirər... Çay səni səsləyər, dolar, daşar. Önündən: "gəlirəm", - deyir, arxadan: "getdim", - deyir, "tələs", - deyir, "zaman uçur", - deyir. Sənin gücün sənin hərəkətindir. Duyğu, düşüncə, niyyət hərəkətverici qüvvədir. "Dayanma", - deyir çay. Çay çağırır. Asta-asta, həlim-həlim. Çay məni çağırır həyat verməyə, dirilməyə, diriltməyə. Çay məni çağırır. Cadar-cadar olmuş torpaqlara, susamış torpaqlara, qurumuş ağaclara. Çay məni çağırır. Səs salmağa, varam deməyə, gəlirəm deməyə, getdim deməyə, zaman uçur deməyə. Çay çağırır. Ölüm və həyatın vəhdət təşkil etdiyi çay.

Bir çay da var. Cənnət adlı üzüyün dəyəri kimi. Çaylar cənnətdən xəbərçi. Çaylar cənnətdən gəlir, yoxsa cənnətə çağırır? Cənnətin əkiz qardaşı çaylar çağırır. Salam olmağa çağırır.

**Yeganə Mirzəyeva**
*Fil.ü.f.e.dok., Cığır MDİD İB-nin sədri,*
*İslamşünaslıq Elmi Tədqiqat Mərkəzinin a.e.i.*

# KİM ÜZR İSTƏMƏLİDİR?

**(I hissə)**

Uzun müddətdir, belə bir sərlövhəli yazı yazmaq və ona konkret faktlarla cavab vermək istəyirdim. Belə ki, Azərbaycan və Türkiyə dövlətlərinə, eləcə də xalqımıza patoloji nifrət bəsləyən cəllad xislətli və qatı millətçi Zori Balayan Ermənistanın Azərbaycan Respublikasına qarşı növbəti əsassız torpaq iddiaları ilə bağlı çıxışlarının birində uydurma erməni qırğınlarından bəhs etmişdi. O, buna görə azərbaycanlıların ermənilərdən üzr istəmələrini təklif və hətta tələb etmişdi. Lakin obyektiv araşdırmalar aparan tarixçi alimlərin əsərlərini oxuduqca məlum olur ki, keçən əsrin əvvəllərindən əzəli Azərbaycan torpaqlarında dövlət yaratmaq istəyən ermənilər azərbaycanlılara qarşı əsl soyqırımı törədiblər. Qadınlar, uşaqlar, yaşlılar da daxil olmaqla minlərlə günahsız insan azərbaycanlı olduğu üçün erməni faşistləri tərəfindən xüsusi amansızlıqla, qəddarcasına, işgəncələr verilərək qətlə yetirilmişdi. Bu oxuduqlarımdan əlavə, yaşlı nəslin nümayəndəsi, 1988-ci ildən ermənilərin Azərbaycana qarşı yeni torpaq iddiaları zəminində azərbaycanlıları öz ata-baba torpaqlarından silah gücünə çıxararkən törətdikləri vəhşiliklərin bilavasitə şahidi kimi həmişə fikirləşmişəm ki, bu haqsızlıqlar haqqında eşidən, bilən və görən normal düşüncəli ermənilər gec-tez azərbaycanlılardan üzr istəyəcəklər. Yəqin ki, harınlamış erməni şovinistlərinin fəaliyyəti nəticəsində daha da kasıblaşan və bir qarın çörəyə möhtac olan sadə ermənilər Azərbaycanla müharibə aparmaqda, azərbaycanlılara qarşı haqsız olduqlarını, səhv etdiklərini bilirlər. Xüsusilə son vaxtlar erməni, onlara yaxın rus və s. dövri mətbuatda bu haqda vaxtaşırı anonim yazılar dərc olunur. Ancaq mənbə tam dəqiqliklə göstərilmədiyi üçün onlara istinad etməmişəm. Nəhayət, bu hadisə mənim bilgimdə ilk obyektiv mənbəyə əsaslanan və hamının tanış ola biləcəyi şəkildə baş verdi. Belə ki, 04.01.2022-ci il tarixində operativ xəbər portallarında ermənilərin Azərbaycandan kömək istədikləri ilə bağlı videogörüntülər yayıldı. Həmin videoda bir qrup erməni öz hökumətindən narazılıq edərək, sərhədə gedəcəklərini, Azərbaycan dövlətindən müharibədə ona qarşı döyüşdükləri üçün üzr istəyəcəklərini bildiriblər: **"Biz burada yığışıb qərara gəlmişik ki, Azərbaycanla sərhədə gedək. Biz Azərbaycandan, rəhbərliyindən bu dövlətə qarşı vuruşduğumuz üçün üzr istəyəcəyik. Beləliklə, biz səhv etdiyimizi etiraf edirik".** Həm də həmin şəxslər Azərbaycan dövlətinin, onun rəhbərliyinin hümanizminə inanaraq deyirlər: **"Biz Azərbaycanda yaşamaq üçün ərizə vermək niyyətindəyik. Bəlkə, bizi orada bir şey ilə təmin edərlər".** Beləliklə, harınlamış cəllad xislətli qatı millətçinin və sadə ermənilərin bir-birindən fərqli istəkləri. Hansı düzdür? Bu suala cavab vermək üçün emosiyalara qapılmadan əldə etdiyim obyektiv məlumatları təqdim edəcəyəm. Fikrimi tam əsaslandırmaq üçün günahsız insan öldürməyin və ya ölümdən qurtarmağın Allah tərəfindən əvəzinin necə verilməsinə dair İncil və Qurani-Kərim kimi müqəddəs kitablardakı seçmə kəlamların bir qismini təqdim edirəm: **"Nə bəxtiyardır sülhyaradanlar! Çünki onlar Allahın övladları adlanacaq** *(İncil, Matta 5:9).* **İsa ona dedi: "Qılıncını yerinə qoy, çünki qılınc çəkənlərin hamısı qılıncla məhv olacaq"** *(İncil, Matta 26:52).*

**"... hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur..."** *(Qurani-Kərim, "Maidə", 5).*

Təəssüf ki, Zori Balayan və onun kimi psixikası anormal erməni millətçiləri İncildə deyildiyi kimi, Tanrının sülh yaradan övladları deyil, əksinə, qılınc çəkərək günahsız insanları məhv edən allahsızlardır. Onların ən böyük allahsızlığı, normal insanlığa yad hərəkətləri məsum, necə deyərlər, "günahlar səhifəsi ağappaq olan" uşaqları da amansızcasına öldürmələridir. Ən pisi də odur ki, azərbaycanlı uşaqları öldürən erməni cəlladları utanmadan bu hərəkətlərini, demək olar ki, bütün dünyaya bəyan edərək insanlığa meydan oxuyurlar. Təəssüf ki, demokratiyadan, insana yüksək dəyər verməkdən çox danışan bir sıra dövlətlər, onların liderləri, ictimai xadimləri Azərbaycana qarşı ikili standartlar nümayiş etdirərək günahsız insanların öldürülməsinə lazımi hüquqi və insani qiymət verməyiblər.



Beləliklə, Zori Balayanın timsalında erməni cəlladlarının insanlıqdankənar hərəkətlərini faktlarla təsdiq edək və kimin üzr istəməli olduğunu aydınlaşdıraq. Bunun üçün kütləvi informasiya vasitələrində yayımlanan, növbəti dəfə 1988-ci ildən başlayan və azərbaycanlılara qarşı edilən erməni vəhşilikləri haqqındakı məlumatları xronoloji qaydada, faktlarla nəzərinizə çatdırmaq istərdim. **Mənim peşəkar tarixçi olmadığımı nəzərə alsaq, həmin məlumatları tarix baxımından xətalardan uzaq olmasa da, şərti olaraq 5 dövrdə sistemləşdirmək mümkündür.**

**I) Aktiv hərbi əməliyyatlara qədər törədilmiş erməni vəhşilikləri.** Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-in tərkibinə verilməsi tələbi ilə Xankəndidə başlayan ilk mitinqlərdən (13 fevral 1988-ci il) ermənilərin azərbaycanlılara qarşı apardıqları hərbi əməliyyatlara qədər olan müddəti (1992-cı ilin əvvəlləri) əhatə edir. Bu dövrdə SSRİ-nin, həmçinin Azərbaycan SSR-in ölkənin mülki əhalisini qorumağa qadir olmayan qorxaq, səriştəsiz rəhbərləri quduzlaşmış və vəhşiləşmiş erməni separatçılarına qarşı, demək olar ki, heç bir tədbir görmədi. Nəticədə Ermənistan SSR-in, eyni zamanda Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin azərbaycanlı əhalisinin zorla, bir çox halda silah gücünə dədə-baba torpaqlarından qovulması prosesi başlandı. Erməni allahsızlığının miqyasını, dərəcəsini göstərmək üçün ermənilərin vəhşilikləri haqqında həqiqətləri çox qısa şəkildə təqdim edirəm. Bundan sonra hər dəfə soruşacağam: **kim üzr istəməlidir?**

**Xankəndi talanları** – 1988-ci ilin 18 sentyabrı tarixə növbəti erməni vəhşiliklərinin törədildiyi gün kimi yazıldı. Həmin gün silahlı ermənilər Xankəndi şəhərində yaşayan azərbaycanlıların evlərinə hücum etdilər. Bu cinayətkar qrupların ilk tapşırığı azərbaycanlıların evlərini yandırmaq idi. Sentyabrın 18-də Xankəndidə **63 ev yandırıldı. İki gün ərzində şəhərdə 270-dən artıq ev qarət olundu.** Bu hadisələrdən öncə isə Xankəndi erməniləri Şuşaya gələn su kəmərini zəhərləməyə cəhd etdilər. Fevralın 20-də Xankəndi Mərkəzi Xəstəxanasında təcrübə keçən iki azərbaycanlı tələbə qız ermənilər tərəfindən zorlandı. 2 gün sonra isə Ağdamdan yüzlərlə azərbaycanlı gənc bu hadisələrə etiraz olaraq Xankəndiyə dinc yürüş etdilər. Onların qarşısı Əsgəranda silahlı ermənilər və rus əsgərləri tərəfindən kəsildi. Baş verən qarşıdurmada iki azərbaycanlı gənc ermənilər tərəfindən qətlə yetirildi, çoxlu sayda insan isə yaralandı.

**Bağanıs Ayrım faciəsi.** 1990-cı il martın 24-də erməni silahlıları rus hərbçilərinə məxsus hərbi texnikadan istifadə edərək Qazaxın dağlıq kəndi olan Bağanıs Ayrıma hücum ediblər. **Nəticədə yeddi kənd sakini ocağa atılaraq yandırılıb, iki nəfər isə güllələnib.** *(Haşiyə. Bağanıs Ayrım qırğını vaxtı ermənilər tərəfindən yandırılmış meyitləri şəxsən görmüşəm. Günahsız insanlara qarşı edilən bu allahsızlıqdan dərin sinir sarsıntıları keçirmişəm, bu qırğını törədənlərə və ideoloqlarına qarşı nifrətim birə-on artdı və sonrakı erməni vəhşilikləri bu nifrətimi dəfələrlə artırdı).* Qətlə yetirilənlərin ən yaşlısı Dədəş Əliyev 75 yaşında, ən kiçiyi isə 39 günlük Hafiz olub.

**1992-ci ilin 10-12 fevralında erməni qeyri-qanuni silahlı birləşmələrinin Şuşa rayonunun Malıbəyli, Aşağı Quşçular və Yuxarı Quşçular kəndlərinə hücumları nəticəsində təxminən 50-yə yaxın dinc azərbaycanlı qətlə yetirilib.** Bu kəndlərdə təxminən 4 000 nəfərə yaxın əhali yaşayırdı. Fevralın 10-da gecə yarısı erməni silahlı birləşmələri Malıbəyliyə hücum edib. Qadın və uşaqlar Quşçular kəndinə qaçıb. Bütün evlər yandırılıb. Ümumilikdə isə hər iki kəndin sakinləri səhərə qədər düşmənlə vuruşub. Məhz Malıbəyli, Aşağı Quşçular və Yuxarı Quşçular kəndlərindəki qətliamlardan sonra yüzlərlə günahsız azərbaycanlının qanı axıdılan Qaradağlı, Ağdaban soyqırımları və əsrin ən böyük faciələrindən olan Xocalı soyqırımı baş verib.

**Qaradağlı qətliamı.** Erməni hərbi birləşmələri 1992-ci il fevralın 14-də Xankəndidə yerləşən keçmiş SSRİ silahlı qüvvələrinin 366-cı motoatıcı alayının hərbi qüvvəsinin və texnikasının köməyi ilə Xocavəndin Qaradağlı kəndinə hücum etdi. Sakinlərin kəndi qəhrəmancasına müdafiə etməsinə baxmayaraq, fevralın 17-də qeyri-bərabər döyüşlərdə Qaradağlı kəndi ermənilər tərəfindən işğal olundu. **Faciə nəticəsində əsir götürülən 118 kənd sakinindən 101 nəfəri vəhşicəsinə qətlə yetirildi. Öldürülənlərdən 21 nəfəri ahıl və qoca, 10 nəfəri qadın, 8 nəfəri məktəbli idi.**

**Ağdaban faciəsi.** 1992-ci il aprel ayının 8-də ermənilər tərəfindən Kəlbəcərin sonrakı dövrdə işğalına şərait yaratmaq məqsədilə rayonun Ağdaban kəndində törədilmiş soyqırımı hadisəsidir. Kəlbəcər rayonunun 130 evdən ibarət Ağdaban kəndi erməni qüvvələri tərəfindən tamamilə yandırılıb, kəndin 779 nəfər sakininə işgəncələr verilib. 67 nəfər qətlə yetirilib, 8 nəfər 90-100 yaşlı qoca, 2 azyaşlı uşaq və 7 qadın diri-diri odda yandırılıb, 2 nəfər itkin düşüb, 12 nəfərə ağır bədən xəsarəti yetirilib. Tarix, memarlıq və mədəniyyət abidələri dağıdılıb, müqəddəs ziyarətgah və məzarlıqlar təhqir olunaraq məhv edilib. Bundan başqa, Azərbaycanın klassik aşıq şeirinin ustadı Aşıq Qurbani və onun oğlu Aşıq Şəmşirin evi, zəngin arxivi və əlyazmaları yandırılıb, talan olunub.

Dağlıq Qarabağda azərbaycanlılar yaşayan bölgə 1991-ci ildən mühasirədə olduğu üçün yeganə giriş-çıxış helikopterlə mümkün olub. Şuşaya uçan axırıncı helikopter isə 1992-ci il yanvarın 28-də ermənilər tərəfindən vurulub. Ağdamdan uçan Mi-8 tipli mülki helikopter Şuşa rayonunun Xəlfəli kəndi üzərində vurulub. Erməni quldurların Xankəndi istiqamətindən açdığı atəş nəticəsində vurulan vertolyotda 41 sərnişin, 3 ekipaj üzvü həlak oldu. Bundan iki ay əvvəl isə - 20 noyabr 1991-ci ildə ermənilərin Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında Mi-8 helikopterini vurması nəticəsində Azərbaycanın bir çox dövlət xadimi və jurnalisti həlak oldu. Ümumilikdə, qəza nəticəsində 22 nəfər həyatını itirdi.

Bu cür erməni allahsızlıqları haqqında digər məlumatları da təqdim etmək olar. Lakin, məncə, kifayətdir ki, bu suala cavab verilsin: "Kim üzr istəməlidir?!"

**II) Birinci Qarabağ müharibəsi dövründə törədilmiş erməni vəhşilikləri.** Xocalı qətliamı törədilən dövrdən (25-26 fevral 1992-ci il) Qırğızıstanın paytaxtı Bişkekdə atəşkəs müqaviləsi bağlanana qədər olan dövrü (8 may 1994-cü il) əhatə edir. Bu dövrü də Azərbaycan dövlətini, onun mülki vətəndaşlarını qorumaları müqəddəs vəzifələri olan, lakin səriştəsizlikləri ucbatından bunu edə bilməyən mərkəzi hakimiyyət nümayəndələrinin yarıtmaz fəaliyyəti nəticəsində mülki şəxslərə (1), işğal olunmuş ərazilərdəki mədəni (2) və dini (3) abidələrə, azərbaycanlı qəbirlərinə (4), dövlət və mülki (5) əmlaka və s. qarşı törədilmiş saysız-hesabsız erməni vəhşilikləri dövrü kimi səciyyələndirmək olar. Qeyd etdiklərim subyektiv fikir kimi görünməsin deyə bu sadalananlara qarşı olan vəhşilikləri də sistemli şəkildə müxtəlif mənbələrə və faktlara istinad edərək təqdim edirəm.

**1. Mülki şəxslərə qarşı törədilmiş erməni vəhşilikləri.** Azərbaycanlı Əsir və Girovlarla bağlı Məlumat Mərkəzinin məlumatına əsasən, **Birinci Qarabağ müharibəsi dövründən bugünədək Azərbaycanın 3890-a yaxın vətəndaşı itkin sayılır.** Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Fransa Prezidenti Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda keçirilən görüşdə Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin taleyinin, kütləvi məzarlıqların yerinin müəyyənləşdirilməsi məsələsinə xüsusi olaraq diqqət verib. Dövlətimizin başçısı Birinci Qarabağ müharibəsi zamanı **71-i uşaq, 267-si qadın və 326-sı ahıl olmaqla ümumilikdə 3890 azərbaycanlının itkin düşməsini qabardıb.**

davamı səh. 12

# KİM ÜZR İSTƏMƏLİDİR?

əvvəli səh. 11

Azərbaycan Prezidenti Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş vətəndaşlarımızın taleyi barədə məlumat verilməsi və onların basdırıldığı kütləvi məzarlıqların yerlərinə Ermənistan tərəfindən aydınlıq gətirilməsinin vacibliyi diqqətə çatdırıb. Təqdirəlayiq haldır ki, bu məsələyə hətta ermənipərəst Fransa və Avropa İttifaqı Şurasının prezidentləri tərəfindən dəstək ifadə olunub. Lakin təəssüf ki, Ermənistan itkin vətəndaşlarımızla bağlı öz üzərinə öhdəlik götürməkdən yayınır. Bununla bağlı Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin bəyanatında bildirilir ki, "Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibinin səkkiz erməni əsilli hərbi qulluqçunun qaytarılması müqabilində 90-cı illərin Ermənistan-Azərbaycan müharibəsində itkin düşmüş vətəndaşlarımızın və onların basdırıldıqları kütləvi məzarlıqların yerləri barədə məlumatların Azərbaycan tərəfinə verilməsi barədə Ermənistanın öz üzərinə öhdəlik götürməməsinə dair açıqlaması beynəlxalq humanitar hüquq normalarına və humanizm prinsipinə hörmətsizliyin ən ifrat nümunəsi kimi qiymətləndirilməlidir. Ermənistan Xarici İşlər Nazirliyinə xatırladırıq ki, 1949-cu il Cenevrə Konvensiyası və onun müvafiq protokolları və bütövlükdə beynəlxalq humanitar hüquq normaları ilə üzərinə götürdüyü öhdəliklərə uyğun olaraq, Ermənistan tərəfi sözügedən dövlətin silahlı qüvvələri tərəfindən sistemli surətdə qətlə yetirilən mülki və hərbi Azərbaycan vətəndaşları və onların kütləvi şəkildə basdırıldıqları məzarlıqların yerləri barədə məlumatları Azərbaycan tərəfinə təqdim etməyə borcludur. Qeyd edək ki, xoşniyyətli hərəkət kimi bütün əsir və terrorçu erməni əsilli hərbi qulluqçuların Ermənistana sağ qaytarılması və Azərbaycan tərəfinin atdığı humanist addımların nəticəsi olaraq 1708 erməni hərbi qulluqçunun cəsədinin tapılaraq qarşı tərəfə təhvil verilməsi fonunda Ermənistanın inkarçılıq siyasətini davam etdirməsi, beynəlxalq humanitar hüquq əsasında, həmçinin 4 fevral 2022-ci ildə videoformatda keçirilmiş görüş zamanı üzərinə götürdüyü öhdəlikləri inkar etməsi mənəvi-etik və beynəlxalq hüquqi çərçivələrdən tamamilə kənara çıxır. Ermənilərin beynəlxalq humanitar hüquq normalarına və humanizm prinsiplərinə hörmətsizliyinə baxmayaraq, Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərlə bağlı işlər davam edir. Azərbaycan Respublikasının Baş prokuroru bildirib ki, bu məsələ diqqət mərkəzindədir: "Artıq 55 belə şəxs müəyyən olunub. Eyni zamanda Kəlbəcərdə, Başlıbeldə və digər yerlərdə də kütləvi naməlum məzarlar artıq aşkarlanır". Son günlərin məlumatları təsdiq edir ki, Ermənistanın Birinci Qarabağ müharibəsində qətlə yetirilən, lakin itkin düşmüş hesab olunan vətəndaşlarımızın və onların basdırıldıqları kütləvi məzarlıqların yerləri barədə məlumatlar var. Belə ki, Ermənistan son illərdə Birinci Qarabağ müharibəsindən bəri itkin düşmüş hesab edilən 108 nəfərin nəşinin qalıqlarını Azərbaycana təhvil verib. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu rəhbərinin müavini Eldar Səmədov deyib ki, Ermənistanın qaytardığı meyit qalıqlarından DNT nümunələri götürmək çox çətindir. Çünki Ermənistan tərəfi Azərbaycana meyit qalıqlarını qarışıq verib və meyit qalıqları əsasən, qrunt suları, yeraltı suların keçdiyi ərazilərdən götürülüb. Bu, meyitlərin kütləvi məzarlıqlarda basdırıldığını və kütləvi məzarlıqların mövcudluğunu bir daha sübut edir. Beləliklə, sadalananlardan sonra yenə də soruşulmalıdır: **Kim üzr istəməlidir?**

Bu sualın yeganə düzgün cavabı budur: **vəhşiliklər törətmiş ermənilər üzr istəməlidirlər!** Çünki onlar yuxarıda sadalananlardan başqa, XX əsrin ən böyük faciələrindən, qəddarlığından, vəhşiliyindən biri olan XOCALI faciəsini törətdiblər. Xocalı soyqırımı Katın qırğını, Xatın faciəsi, Srebrenitsa qətliamı ilə eyni səviyyədə durur. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri 7 min sakini olan silahsız və köməksiz Xocalı şəhərinə hücuma keçmiş, qədim şəhəri yerlə-yeksan etmişdilər. Şəhəri tərk etməyə məcbur olan əhali dağlara, meşələrə qaçmışdı. Hər tərəfdə silahlı ermənilər dinc əhalini güllələmiş, onlara amansız divan tutmuşdular. Beləliklə, soyuq, qarlı fevral gecəsində nə qədər qız-gəlin əsir düşdü, girov götürüldü. Nə qədər insan erməni silahından yayınıb meşələrə, dağlara qaçsalar da, onların çoxu soyuqdan, şaxtadan məhv oldu... **Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) və digər mötəbər mənbələrin məlumatında deyilir: "Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində Xocalı əhalisindən 613 nəfər öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin – qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərinə məruz qalmışlar. 150 nəfərin taleyi hələ də məlum deyil. Bu, əsl soyqırımı idi. Xocalıda öldürülmüş 613 nəfərdən 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri qocadır. Xocalı faciəsində 8 ailə bütövlükdə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Bu cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilmişdir. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, üzlərinin dərisi soyulmuş, körpə uşaqların gözləri çıxarılmış, süngü ilə hamilə qadınların qarınları yarılmışdır. Ermənilər, hətta meyitləri də təhqir etmişlər..." Beləliklə, yenə sual olunur: kim üzr istəməlidir ?**

Mən məlum Qarabağ hadisələri haqqında yazılarımda baş verən bütün **hadisələrə teist nöqteyi nəzərindən yanaşıram** və hesab edirəm ki, Xocalı soyqırımını törədən allahsızlar gec-tez bunun cəzasını çəkəcəklər. Onların günahsız qanları yerdə qalmayacaq və qalmır. Belə ki, **Azərbaycan Respublikası Prezidenti, müzəffər Ali Baş komandan İlham Əliyevin rəhbərliyi altında aparılan 44 günlük İkinci Qarabağ müharibəsində işğal altında olan torpaqlarımız azad olunarkən Xocalı faciəsinin törədilməsində iştirak etmiş allahsız cəlladların da bir çoxu rəşadətli Azərbaycan Ordusu tərəfindən məhv edildi.** Hələ də sağ olan Xocalı və Qarabağ müharibəsin digər cəlladları da Allahın köməyi ilə mütləq layiqli cəzalarını alacaqlar.

**2. İşğal altında olmuş ərazilərdəki mədəniyyət abidələrinə qarşı törədilmiş vəhşiliklər.** Erməni vəhşiliklərinin ən bariz sübutlarından biri də işğal altında olmuş ərazilərdəki mədəniyyət abidələrinə qarşı edilmiş vəhşiliklərdir. Azərbaycan Respublikasının Mədəniyyət naziri Anar Kərimov jurnalistlərə açıqlamasında deyib: "Monitorinqlər nəticəsində işğaldan azad edilən ərazilərdə tarix mədəniyyət abidələrimiz, eləcə də mədəniyyət müəssisələrimiz aşkar edilir. **Təxminən, 400-ə yaxın mədəniyyət abidəsi, 160-a yaxın yeni tarixi mədəniyyət abidəsi aşkar edilib. Eyni zamanda, 800-dən çox mədəniyyət müəssisəsinin yerləri müəyyənləşdirilib. Təəssüflər olsun ki, tarixi-mədəniyyət abidələri və müəssisələrinin 90-95%-nin vəziyyəti acınacaqlıdır, demək olar ki, tamamilə dağıdılıb.** Bu da bizim üzərimizə böyük öhdəlik qoyur ki, bunların hamısını yenidən bərpa edək. Monitorinqin nəticələrinin təhlili bitəndən sonra beynəlxalq təşkilatlara müraciət edəcəyik. Məqsədimiz Ermənistanın bu vəhşiliklərə və qəsdən Azərbaycanın mədəni-tarixi abidələrini dağıtmasına görə məsuliyyətə cəlb edilməsinə nail olmaqdır". **Yenə sual olunur: kim üzr istəməlidir?**

**3. İşğal altında olmuş ərazilərdəki dini abidələrə qarşı törədilmiş erməni vəhşilikləri.** Azərbaycan Respublikası Prezidenti İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının Elm və Texnologiya üzrə ikinci Zirvə toplantısında deyib: **"Ermənistan işğal altında olmuş ərazilərdə yerləşən 67 məsciddən 65-ni yerlə-yeksan edib, iki məscidə isə ciddi zərər dəyib və onlar murdarlanıb. Biz Ermənistanın İslam ölkələri ilə münasibətlərini gücləndirmək cəhdlərini müşahidə edirik. Məscidlərdən donuz və inək tövləsi kimi istifadə etmiş və bununla da bütün İslam ümmətinin hisslərini təhqir edən ölkə müsəlman dövlətlərinin və müsəlmanların dostu ola bilməz".** Bakı şəhərinin mərkəzində yerləşən erməni kilsəsi Azərbaycan dövləti tərəfindən bərpa edilərək qorunur. Azərbaycanın yüksək səviyyəli dövlət qurumları bildirir ki, işğaldan azad olunmuş ərazilərdəki müsəlman abidələri ilə yanaşı, xristian mirası da mənşəyindən asılı olmayaraq yüksək səviyyədə qorunacaq, bərpa ediləcək və istifadəyə veriləcək. Bax, budur Allaha inam və Allah sevgisi.

**4. İşğal altında olmuş ərazilərdəki azərbaycanlı qəbirlərinə qarşı törədilmiş erməni vəhşilikləri.** Niderlanddan Ermənistana repatriasiya olunmuş tərcüməçi, publisist və bloger Nairi Axverdi Birinci Qarabağ müharibəsi zamanı erməni səhra komandirlərinin və yaraqlılarının göstərdiyi vəhşiliklər barədə tvitter hesabında yazıb: "Birinci Qarabağ müharibəsi zamanı vuruşmuş ermənilər çox vaxt yaşadıqlarından açıq danışırlar. Bir veteran komandir rəhbərlik etdiyi bölməyə Azərbaycan qəbirlərini qazmaq və qızıl diş axtarmaq əmri verməsi barədə danışıb. O, komandirin və həmkarlarının hərisliyinə dəhşətlə baxdığını deyirdi". Başqa bir rusiyalı ekspert Aleksandr Razuvayev ermənilərin törətdiyi vəhşiliklər barəsində, demək olar ki, mənimlə tam həmfikirdir. Müsahibələrinin birində o deyib: "Ermənilərin bu barbarlığı bizi dəhşətə saldı. Ermənistanın Qarabağda işğal dövründə həyata keçirdiyi siyasət etnik millətçiliyə əsaslanan barbarlığın qarışığıdır. Erməni mədəniyyətinə, erməni ənənəsinə aid olmayan hər şey təhqirə və ya məhvə məruz qalıb. Onların məntiqinə görə, azərbaycanlılar, daha geniş şəkildə desək, bütün türklər vəhşi köçəri, hörmətə layiq olmayan köksüz barbar, ikinci dərəcəli insanlardır. Qarabağda donuzxanaya çevrilən məscidlər artıq bütün sərhədləri keçmək deməkdir. Ateist ideologiyasının mahiyyətini heç vaxt gizlətməyən kommunistlər də belə etməyi ağlılarından keçirməmişdilər. Mən özüm müsəlman deyiləm, amma mən və dostlarım, həm xristian, həm də Kazan və Ufadan olan müsəlmanlar tamamilə şokda idik. Düşünürəm ki, ermənilər Qarabağın heç vaxt Azərbaycana qayıtmayacağına, əbədi onlarda qalacağına inanırdılar. **Ümumiyyətlə, bu, ləyaqətsizlikdir: əsl döyüşçü həmişə başqasının inancına hörmət edir, hətta düşmənin də. Dağılmış qəbiristanlar çox pisdir. Ölülərin dincliyini pozmağı Allah amansızcasına sorğulayacaq.** Halbuki Azərbaycan özü dünyəvi və tolerant dövlətdir. Burada müxtəlif dinlərə mənsub insanların – müsəlmanların, xristianların, yəhudilərin, zərdüştilərin, tenqriçilərin və bir çox başqa dinlərin nümayəndələri rahat yaşayır". **Yenə sual olunur: kim üzr istəməlidir ?**

**5. İşğal altında olmuş ərazilərdəki dövlət və şəxsi əmlaka qarşı törədilmiş erməni vəhşilikləri.** İşğal altında olmuş ərazilərdəki tikililərə qarşı edilmiş vəhşilikləri Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva daha dəqiq ifadə edib: "Ermənistan 30 ilə yaxın bir müddətdə Azərbaycan ərazilərinin bir hissəsini hərbi işğal altında saxlayaraq bu ərazilərdə geniş miqyaslı qeyri-qanuni fəaliyyət, o cümlədən **urbisid, kultursid və ekosid törədən bir ölkədir. Ermənistan Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndini yer üzündən silib.** Bu ərazilərdəki tarixi, mədəni, dini abidələr viran qoyulub, talan edilib. Ermənistan işğal altında saxladığı ərazilərdə törətdiyi məqsədyönlü dağıntıları gizlətmək üçün onilliklər ərzində bu ərazilərə UNESCO missiyasının səfərinin qarşısını alıb. Bu fakt UNESCO-nun 2005-ci ildə dərc etdiyi fəaliyyət hesabatında aydın şəkildə əks olunub. Eyni zamanda, Ermənistan öz ərazisindəki Azərbaycan mədəni irsini tamamilə məhv edib. Ermənistan son 30 ildə beynəlxalq hüquq, o cümlədən humanitar hüquq normalarını tapdalayıb; 1949-cu il Cenevrə Konvensiyası, UNESCO-nun 1954-cü və 1970-ci illər konvensiyalarını kobud şəkildə pozub. Ermənistanın yuxarıda sadalanan vandalizminin nəticələri beynəlxalq media və müstəqil ekspertlər tərəfindən geniş şəkildə sənədləşdirilib və işıqlandırılıb. Bütün bu qeyd edilənlər fonunda Ermənistan yalan çıxarışlar edərək öz qeyri-qanuni əməllərini pərdələmək məqsədi güdür. Lakin qonşu ölkənin rəsmi qurumu unudur ki, Ermənistandan fərqli olaraq, Azərbaycan tarixi-mədəni irsinə dini və etnik zəmində ayrı-seçkilik etmir. Azərbaycan bütün dünyada tolerantlıq və mədəni müxtəliflik mümunəsidir". **Təkcə Xocalının işğalı vaxtı dövlətin və əhalinin əmlakına 01.04.1992-ci il tarixinə olan qiymətlərlə 5 mlrd. rubl dəyərində ziyan vurulmuşdur.** Məşhur rusiyalı hərbi ekspert İqor Korotçenko bildirib ki, Ermənistanın işğal etdiyi torpaqlarda törətdiyi dağıntılara görə Azərbaycana təzminat ödəməsi istiqamətində beynəlxalq hüquq çərçivəsində məsələ qaldırılmalı, əsaslandırılmalı, həll edilməsi üçün beynəlxalq birliklə birgə addımlar atılmalıdır. Qarabağda az qala hər şeyin ucdantutma məhv edildiyi nəzərə alınsa, **ödəniləcək təzminatın 100 milyard dollar həcmində** olacağı şübhə doğurmur. Sözsüz ki, Qərb ölkələrindəki erməni lobbisi də, erməni diasporu da bu məsələnin baş tutmaması üçün yerli hökumətlərə hərtərəfli təzyiqlər göstərəcək. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın məruz qaldığı itki və tələfatların qiymətləndirilməsi üçün vaxtilə ölkə rəhbərinin göstərişi ilə yaradılmış işçi qrupu 2014-cü ildən etibarən, bu işlə ciddi məşğul olaraq, konkret nəticələr əldə edib. Bütövlükdə isə işçi qrupu tərəfindən 2017-ci il üçün verilmiş məlumata görə, hərbi təcavüz və işğal nəticəsində ölkəmizə dəymiş itki və ziyanların ümumi dəyəri 820 milyard dollar həcmində qiymətləndirilib. Şübhəsiz ki, 2020-ci ilin sentyabrında başlamış Vətən müharibəsi dövründə ölkəmizə vurulmuş ziyanın, tələfatların həcmini və s. nəzərə alsaq, bu rəqəm xeyli yüksək olacaqdır. **Yenə sual olunur: kim üzr istəməlidir?**

**Elçin Bilaloğlu,**
*Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin həkimi*

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini fevral ayı ərzində də davam etdirmişdir.*

**Cari ay ərzində bu qəbildən olan tədbirlər:**

**3 fevral** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Kürdəmir rayon Təhsil Şöbəsi (TŞ) və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) səlahiyyətli nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərinə bağlı gənclik" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab şəhər Peşə Liseyinin birgə təşkilatçılığı ilə "Gənclərimizi dini radikalizm və ekstremizmin təsirlərindən qoruyaq" mövzusunda;

**5 fevral** – Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin psixoloqlarının Respublika Hərbi Prokurorluğunun və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələri ilə birlikdə Gəncədə hərbi hissədə;



**8 fevral** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göyçay şəhər 1 saylı tam orta məktəbində; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zaqatala şəhər N.Hüseynov adına 2 saylı tam orta məktəbində "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda;

**9 fevral** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Tərtər rayonu Qarağacı kənd tam orta məktəbində "Məktəblilərin radikal dini düşüncələrdən qorunmasında təhsilin əhəmiyyəti" mövzusunda;

**10 fevral** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Yardımlı rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Yardımlı rayonunda "Gəncləri dini radikalizm və ekstremizmdən qoruyaq" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qubadakı Heydər Əliyev Mərkəzində "Dini radikalizmlə mübarizədə gənclərin rolu" mövzusunda;

**11 fevral** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Masallı rayon Tarix-Diyarşünaslıq muzeyində "Narkomaniya əsrin bəlası" mövzusunda;

**14 fevral** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Kürdəmir rayon TŞ və QMİ-nin rayon üzrə səlahiyyətli nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Gənclik və milli-mənəvi dəyərlər" mövzusunda;

**15 fevral** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Gənclərin zərərli vərdişlərdən qorunmasında təhsilin rolu" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şəmkir rayon Zəyəm Cırdaxan kənd S.Məmmədov adına tam orta məktəbində "Gənclərin radikal dünyagörüşündən qorunmasında təhsilin və milli-mənəvi dəyərlərin rolu" mövzusunda;

**16 fevral** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ərkivan qəsəbəsi Zahid Nəcəfov adına 2 saylı tam orta məktəbində "Zərərli vərdişlərə qarşı mübariz olaq" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı rayonunda "Narkomaniyaya qarşı mübarizə sağlam həyatın təminatıdır" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizi möhkəmləndirməsindəki önəmi" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran Şəhər İcra Hakimiyyəti və QMİ-nin Lənkəran bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə "Erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda;



**17 fevral** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Balakən rayonu "Gənclər evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə "Narkomaniya: səbəbləri və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şəmkir rayon Düyərli kənd tam orta məktəbində "Müasir gənclik və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi, Qubadlı Rayon İcra Hakimiyyəti, Qubadlı Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Sumqayıt ərazisində yerləşən qaçqın şəhərciyindəki Qubadlı rayon Hal kənd tam orta məktəbində "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zərdab şəhər Peşə Liseyində "Narkomaniya sərhədsiz fəlakətdir" mövzusunda;



**18 fevral** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Xaçmaz Rayon Heydər Əliyev Mərkəzində "Dini radikalizmlə mübarizədə gənclərin rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zaqatala rayon Mədəniyyət Mərkəzində "Multikulturalizm, tolerantlıq, sülh şəraitində birgə yaşayış, milli və ümumbəşəri dəyərlərə hörmət" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağstafa rayonunda "Gənclərin



zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran Şəhər Təhsil Şöbəsi, Şəhər Gənclər və İdman İdarəsi, Sosial Xidmət Agentliyinin 13 saylı filialı və Lənkəran şəhəri 5 saylı tam orta məktəbin birgə təşkilatçılığı ilə "Erkən nikah: hüquqi və mənəvi müstəvidə" mövzusunda;

**22 fevral** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə YAP Gəncə şəhər təşkilatında "Dini radikalizmlə mübarizədə gənclərin rolu" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şəmkir rayon Düyərli kənd 1 saylı tam orta məktəbində "Erkən nikah və ona qarşı mübarizə yolları" mövzusunda;

**23 fevral** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasında dini icmaların rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayon Heydər Əliyev Mərkəzində "Gənclərin yad təsirlərdən qorunmasında təhsil amilinin rolu" mövzusunda;

**24 fevral** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Müdafiə Nazirliyinin Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissəsinin təşkilatçılığı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı çərçivəsində "Seçim həmişə var: narkotik vasitələrə "Yox" deməyi bacar!" mövzusunda;



DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Hacıqabul rayonunda yerləşən şəhər mərkəzi "Cümə" məscidində "Qızların təhsil almasının önəmi: dini qaydalar nə deyir?" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Kürdəmir rayonunda "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasında dini icmaların rolu" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Salyan rayon Gənclər və İdman İdarəsi və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə A.Pənah adına 1 saylı humanitar fənlər təmayüllü məktəb-liseydə "Qızları təhsildən yayındırmağın hüquqi və mənəvi məsuliyyətləri" mövzusunda baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müavinləri və psixoloqlarının, uşaq birliyi təşkilatları rəhbərlərinin və şagirdlərin iştirakı ilə keçirilən videokonfranslar zamanı düzgünlük, humanizm, vətənpərvərlik, xeyirxahlıq, mərhəmət, milli-mənəvi dəyərlərə bağlılıq, böyüklərə hörmət, əməksevərlik ruhunda tərbiyə edilməsində əsas məsuliyyəti ailənin daşıdığı vurğulanıb.

Milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu barədə danışan natiqlər qeyd ediblər ki, hazırda dövlət siyasətinin prioritet istiqamətlərindən birini də milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi təşkil edir. Natiqlər məktəblilərin zərərli vərdişlərdən və radikal dini təsirlərdən qorunmasının vacibliyini vurğulayaraq bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlərdən bəhs ediblər. Gənclərin radikal dini təsirlərdən, dini radikalizmdən qorunmasında təhsilin önəminə toxunublar.

Tədbirlərdə çıxışlar zamanı iştirakçılara narkomaniyanın fəsadları barədə geniş məlumat verilib. Bildirilib ki, bu problem cəmiyyətin mənəvi və əxlaqi dəyərlərini sarsıdan, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan amillərdən biridir. Həmçinin çıxışlar zamanı erkən nikahın fəsadları barədə də fikir mübadiləsi aparılıb, belə hallara qarşı mübarizədə hər kəsin üzərinə böyük məsuliyyət düşdüyü vurğulanıb.

Tədbirlərin sonunda iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# XOCALI FACİƏSİNİN 30-CU İLDÖNÜMÜNƏ HƏSR EDİLMİŞ ANIM TƏDBİRLƏRİ TƏŞKİL OLUNUB

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Xocalı faciəsinin 30-cu ildönümü münasibətilə bölgələrdə silsilə tədbirlər keçirilib. Bu qəbildən olan tədbirlər:*

**Fevralın 18**-də DQİDK-ın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Masallı rayon Gənclər evində "Xocalı - bəşəriyyətə qarşı tarixi cinayətdir" mövzusunda;

**Fevralın 19**-da DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göyçay rayonununda;

**Fevralın 21**-də DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Siyəzən şəhəri 2 saylı tam orta məktəbində "Xocalı faciəsi qan yaddaşımızdır" mövzusunda

**Fevralın 22**-də DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Balakən Peşə Məktəbində;

Fevralın 23-də DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qubada "Xocalı soyqırımı: dini müstəvidə baxış" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zaqatala İslam Kollecində "Xocalı fəryadı" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sumqayıt şəhərində;

**Fevralın 24**-də DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhərində; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Kürdəmir rayon Heydər Əliyev Mərkəzində; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin təşkilatçılığı ilə Nizami rayonu 210 saylı tam orta məktəbində; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə videokonfrans formatında "Xocalı soyqırımı bütün bəşəriyyətin faciəsidir" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbənin təşkilatçılığı və Şirvan şəhər, Biləsuvar, Neftçala, Salyan və Hacıqabul rayonlarında fəaliyyət göstərən dini icma sədrləri, din xadimlərinin iştirakı ilə onlayn formatda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Mingəçevir şəhərində; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax Peşə Liseyində; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lənkəran şəhərində; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Tərtər rayonunun Qapanlı kənd tam orta məktəbində;



**Fevralın 25**-də DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Qırmızı qəsəbə dağ yəhudiləri dini icmasının birgə təşkilatçılığı ilə "Giləki" sinaqoqunda "XX əsrin faciəsi – Xocalı" mövzusunda baş tutub.

DQİDK-nın bölgə şöbələrinin, rayon İcra Hakimiyyətləri, rayon Gənclər və İdman İdarələri, rayon Təhsil Şöbələri, YAP rayon təşkilatları və digər qurumların əməkdaşlarının, məktəb direktorları və psixoloqlarının, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndələrinin, dini icma sədrləri, din xadimləri, dindarların, ziyalılar, gənclər və yuxarı sinif şagirdlərinin, dini konfessiyaların və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirlərdə öncə Xocalı qurbanlarının və Azərbaycanın suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxışçılar Xocalı faciəsi haqqında geniş məlumat veriblər. Qeyd olunub ki, Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olub. Bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün dünyaya, bəşəriyyətə qarşı yönəldilib.

Bildirilib ki, Xocalı soyqırımına ilk dəfə Ümummilli Lider Heydər Əliyev tərəfindən hüquqi və siyasi qiymət verilib. Yanvarın 28-də isə Prezident cənab İlham Əliyev Xocalı soyqırımının otuzuncu ildönümü ilə bağlı Sərəncam imzalayıb və Sərəncama uyğun olaraq Tədbirlər Planı hazırlanıb.

Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsində rəşadətli Azərbaycan ordusunun xalqımıza qazandırdığı tarixi Zəfərin 30 il bundan əvvəl baş vermiş faciənin qisası və layiqli cavabı olduğu vurğulanıb.

Çıxışlarda bildirilib ki, Azərbaycan dövləti ötən illər ərzində erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən, Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün ardıcıl fəaliyyət göstərib. Vurğulanıb ki, faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

## Dövlət qeydiyyatına alınaraq Qeyri-kommersiya dini qurumlarının dövlət reyestrinə (Dini qurumların dövlət reyestri) daxil edilmiş dini qurumlar

**Bakı şəhəri Suraxanı rayonu Hövsan qəsəbəsi "Höccət İbn Həsən" məscidi dini icması**

Qeydiyyat tarixi: 08 fevral 2022-ci il
Qeydiyyat №-si: 100122B – 953
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Soltan Qılmanov küçəsində yerləşən "Höccət ibn Həsən" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Məmmədzadə Allahverən Davud oğlu

**Cəlilabad rayonu Sadatlı kəndi "İmam Hüseyn" məscidi dini icması**

Qeydiyyat tarixi: 08 fevral 2022-ci il
Qeydiyyat №-si: 100122A – 954
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Cəlilabad rayonu, Sadatlı kəndi, "İmam Hüseyn" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Nuriyev Rafət Allahşükür oğlu

**Saatlı rayonu Məzrəli kəndi "İmam Hüseyn" məscidi dini icması**

Qeydiyyat tarixi: 08 fevral 2022-ci il
Qeydiyyat №-si: 100122C – 955
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Saatlı rayonu, Məzrəli kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Tağıyev Bəxtiyar Əliağa oğlu

**Quba şəhər "Ağ məscid" məscidi dini icması**

Qeydiyyat tarixi: 08 fevral 2022-ci il
Qeydiyyat №-si: 100122C – 956
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Quba şəhəri, Cəfər Cabbarlı küçəsi 112, "Ağ məscid"
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Manafov Məmməd Telman oğlu

## Qeyri-kommersiya dini qurumlarının dövlət reyestr (Dini qurumların dövlət reyestri) məlumatları

**"Masallı rayonu Qızılavar kəndi "Peysə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 30 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3-150

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ağayev Xanəli Şirəli oğlu, Cabbarov Yusif Nəsir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Qasımov Toğrul Fərəməz oğlu, İbadov Valeh Zabit oğlu, Fətullayev Kənan Məhərrəm oğlu, Əzizov Əli İbarət oğlu, Əhədov Əhəd Almas oğlu, Zərbiyev Rəhim Baxşəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 03 fevral 2022-ci il

**"Masallı rayonu Ərkivan qəsəbəsi "Zeynoba" məscidi" dini icması**

Qeydiyyat tarixi: 14 noyabr 2009-cu il
Qeydiyyat №-si: 100116C-710

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əsgərov Məmmədəli Abdulhəsən oğlu, Musayeva Yeganə Hacırza qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Kazımov Seymur Zakir oğlu, Əlibabalı Turab Habil oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 03 fevral 2022-ci il

**"Masallı rayonu Köhnə Alvadı kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 10 fevral 2010-cu il
Qeydiyyat №-si: 100110A1-213

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cavadov Elbəyi Qubad oğlu, Dadaşov Mirəskər Qəni oğlu, Abiyev Əlisa İmran oğlu, Fətullayev Balaxan Eyvaz oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məhərrəmov Məhərrəm İbrahim oğlu, Qasımov Tağı Sabir oğlu, Məhərrəmov Şəhriyar Məhərrəm oğlu, Cəfərov Mirsadıq Qubad oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 03 fevral 2022-ci il

**"Ağdaş şəhəri "Üç qovaq" məscidi" dini icması**

Qeydiyyat tarixi: 19 may 2010-cu il
Qeydiyyat №-si: 100110A3-368

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məhərrəmov Adil Arif oğlu, Məhərrəmov Maarif Arif oğlu, Bəhərçinov Murad Yusif oğlu, Bəkirov Xamraz Tərlan oğlu, Yusifzadə Müşfiq Həsən oğlu, Yusifov Aqil Mahir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

davamı səh. 15

## QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

əvvəli səh. 14

Səmədov Abdulla Məhəmməd oğlu, Məmmədov Sahib İsmayıl oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi: 03 fevral 2022-ci il

**"Masallı rayonu Ərkivan qəsəbəsi "Pələngküştə" məscidi" dini icması**
Qeydiyyat tarixi: 11 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2-90
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Dadaşov Xansuvar Mirzəbala oğlu, Quliyev İntiqam Arif oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Quliyev Asim İntiqam oğlu, İbrahimov Mais Bəyoğlan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi: 03 fevral 2022-ci il

**"Masallı rayonu I Yeddioymaq kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 26 may 2010-cu il
Qeydiyyat №-si: 100110A3-384
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Quliyev Səhər Əbilqasım oğlu, Əkbərov Arif Səfər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Nəsirov Vəkil Əbülfəz oğlu, Novruzov Almaz İsa oğlu, Əkbərov Qəfər Səfər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi: 03 fevral 2022-ci il

**"Oğuz rayonu Xaçmaz kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 30 mart 2010-cu il
Qeydiyyat №-si: 100110A2-265
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Lətifov Cəlal Aydəmir oğlu, İbrahimov Sərdar Sabir oğlu, Seyidməmmədov Yaşar Məmməd oğlu, İbrahimov Sabir Musa oğlu, Cəbrayılov Fərhad Yusif oğlu, Rəcəbov Şahid Zakir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Lətifov Habil Kamil oğlu, Kazımov Sahib Vahab oğlu, Süleymanov Habil Ağəli oğlu, Şükürov Aslan Baba oğlu, Yəhyayev Yavər Əhməd oğlu, İslamlı Səid Fəxrəddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi: 11 fevral 2022-ci il

**"Masallı rayonu Meşəkənarı kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-664
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Lətifov Abı Bəhrəm oğlu, Mirzəyev Ağalar Adil oğlu, Qurbanov Nayıb Xudakərim oğlu, Muradov Fətiş Xuduş oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Mirzəyev Nəriman Hidayət oğlu, Mirzəyev Elman Savad oğlu, Alışov Faiq Hüseynağa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi: 11 fevral 2022-ci il

**"Masallı rayonu II Səmidxan kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 13 noyabr 2015-ci il
Qeydiyyat №-si: 100115C-613
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Tağıyev Teymur Səhrət oğlu, Qurbanov Xanlar Xamməd oğlu, Rəhmətov Adışirin Məşdi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Əliyev Emin Cankişi oğlu, Nəcəfov Qorxmaz Vilayət oğlu, Quliyev Əkbər Bəfaddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi: 15 fevral 2022-ci il

**"Masallı şəhəri "Axund Məmmədqulu" kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 21 yanvar 2010-cu il
Qeydiyyat №-si: 100110A1-174
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Rüstəmov Nəbi Cavad oğlu, Hacıyev Kərim Məmmədəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Cəfərov Raqib Ələkbər oğlu, Rüstəmov Nofəl Özbək oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi:15 fevral 2022-ci il

**"Masallı rayonu Qəzvinoba kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 17 iyun 2010-cu il
Qeydiyyat №-si: 100110A3-404
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abbasov Hüseyn Mehrəli oğlu, Nəhmətov Mirəkbər Əbdül oğlu, Babayev Babulla Mikayıl oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Novruzov Mahiyəddin Şəmsəddin oğlu, Nehmətov Səbuhi Mirəsgər oğlu, Nurullayev Rza Bəhlul oğlu, Zahidov Nazim Zahid oğlu, Əsədullayev Şahab Səfər oğlu, Rüstəmov Zəfər Gülağa oğlu, Hüseynov Rövşən Mütəllim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Səmədov Əfqan Möhüb oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Novruzov Mahiyəddin Şəmsəddin oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: 15 fevral 2022-ci il

**"Masallı rayonu Aşurlu kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 28 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3-148
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Tağı Qurban oğlu, Fətdayev Rakif Qiyas oğlu, Rüstəmov Məzahir Qüdrət oğlu, Əskərov Zakir Novruz oğlu, Məcidov Həmid Hacıağa oğlu, Məmmədov Həmdulla Nüsrət oğlu, Bağışov Nemət Nəriman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Məcidov Bayraməli Heydər oğlu, İbrahimov Əlihüseyn Sərhəng oğlu, Əsgərov Xanlar Vəkil oğlu, Fəttayev Amid Rakif oğlu, Nuriyev Fərahim Mərdan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi:14 fevral 2022-ci il

**"Masallı rayonu Türkoba kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 19 iyul 2010-cu il
Qeydiyyat №-si: 100110A3-443
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Rzayev Qiyas Mirağa oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
İsmayılov Mirhəbib Mirəsgər oğlu, Məmmədov Mərdan Şirvan oğlu, Ağayev Vəkil Mürşüd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi: 14 fevral 2022-ci il

**"Masallı şəhəri "Xanım Fatimeyi-Zəhra" məscidi" dini icması**
Qeydiyyat tarixi: 05 dekabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-879
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abuşov Natiq Məcid oğlu, Abuşov Rafiq İsmayıl oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Əzizov Cavad Habil oğlu, Əzizov Aslan Niyaməddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Abuşov Natiq Məcid oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Abuşov Amiq Natiq oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi:
17 fevral 2022-ci il

**"Ağdam rayonu Xındırıstan kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 15 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2-99
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Bağırov Barat Vahab oğlu, Şükürov Bəhmən Məhəmməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Ağayev Vüsal Aqil oğlu, Əliyev Qorxmaz Şamil oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Bağırov Barat Vahab oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Nəsirov Mehman Rza oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: 17 fevral 2022-ci il

**"Lerik rayonu Şinəband kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-838
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abdullayev Marif Gülhəsən oğlu, Əliyev Adil Vəli oğlu, Əkbərova Abigül Sayad qızı, Talıbova Mirvari Heri qızı, Talıbov Yüzbaşı Fitat oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Başirov Rauf Nizam oğlu, Talıbov Akif Mədi oğlu, Talıbov Nəriman Balazar oğlu, Talıbov Vaqif Mədi oğlu, Talıbov Sahib Suanverdi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Əbdülov Arif Gülhəsən oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Talıbov Akif Mədi oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: 21 fevral 2022-ci il

**"Masallı şəhəri Digah məhəlləsi Ə.Əliyev küçəsi "Əbəlfəz" məscidi" dini icması**
Qeydiyyat tarixi: 13 noyabr 2015-ci il
Qeydiyyat №-si: 100115C-618
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əkbərov Mahir İsmayıl oğlu, Məlikov Nəzirməmməd Musa oğlu, Məmmədov Nadir Mütəllim oğlu, Əsədullayev Həsənağa Həsən oğlu, Əliyev Vaqif Bağı oğlu, Hacıyev Əzizulla Məmmədəli oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Başirov Hilal Hüseynağa oğlu, Nuriyev Ceyhun Səlim oğlu, Başirov Əli Abdulla oğlu, Əsədullayev Mübariz Həsənağa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi:21 fevral 2022-ci il

**"Sabirabad rayonu Əsgərbəyli kəndi "İmam Əli" adına məscidin" dini icması**
Qeydiyyat tarixi: 24 aprel 2015-ci il
Qeydiyyat №-si: 100115C-581
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Zülfüqarov Mirzəxan Heydər oğlu, Mehtiyeva Maynisə Mustafa qızı, Ağammədova Zeybə Soltan qızı dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Əflatunov Əlibala Ziyadxan oğlu, Qarayev Arif Qardaşəli oğlu, Qarayev Tamerlan Arif oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi: 21 fevral 2022-ci il

# CƏMİYYƏT və DİN

№ 02 (364) FEVRAL 2022-ci il


## BİLL QEYTS PANDEMİYA BARƏDƏ KİTAB YAZIB




"Microsoft"-un qurucusu, milyarder Bill Qeyts "Növbəti pandemiyanın qarşısını necə almalı?" adlı kitab yazıb. Kitab bu ilin mayında işıq üzü görəcək.

Kitabın yazılması zərurətindən bəhs edən edən Qeyts öz şəxsi bloqunda bu barədə bildirib: "Mən bu kitabda nəinki gələcəkdə pandemiyaları dayandırmaq, həm də bu prosesdə bütün dünyada insanların sağlamlığı naminə səhiyyə sistemini təkmilləşdirmək üçün atacağımız konkret addımları təsvir edirəm. Eyni zamanda, pandemiyadan çıxaracağımız dərsləri, insanların həyatını xilas etmək üçün lazım olan yenilikləri qeyd edirəm.

"Microsoft"-un yaradıcısı koronavirus pandemiyasının inkişafının qarşısını alınması üçün mümkün ssenarilər haqqında fikirlərini kitabda oxucuları ilə bölüşəcək.

## DÜNYANIN ƏN ÇİRKLİ HAVASI OLAN ŞƏHƏRLƏRİNİN ADLARI AÇIQLANIB



Dünyanın ən çirkli havasına malik şəhərlərin reytinqi tərtib olunub. Siyahıda ilk yeri Pakistanın Lahor şəhəri tutur.

Bu barədə məlumat real zamanda havanın çirklənmə səviyyəsini qeydə alan "Iqair" portalının dərc etdiyi reytinqdə yer alıb. Hindistanın Kəlküttə və Banqladeşin Dəkkə şəhərləri reytinqdə müvafiq olaraq ikinci və üçüncü yerdədir.

Siyahının ilk onluğunda, həmçinin Pakistanın Kəraçi, Hindistanın Delhi, Ukraynanın Kiyev, Makedoniyanın Skopye, Vyetnamın Hanoy, Serbiyanın Belqrad, Bosniya və Herseqovinanın Sarayevo şəhərləri qərarlaşıb.

Atmosferin bu dərəcədə çirklənmə səviyyəsində tənəffüs yolları xəstə olan insanların respirator taxmaları, qapalı məkanlarda pəncərələri bağlamağı və hava təmizləyən qurğulardan istifadə etmələri, həmçinin açıq havada idmanla məşğul olmaqdan çəkinmələri tövsiyə olunur.

## YAXIN ŞƏRQİN ƏN BÖYÜK "AĞILLI ŞƏHƏR"İ ELAN EDİLİB



Ərəb Parlamentinin Qahirədə keçirilən 4-cü konfransında Misirin yeni inzibati paytaxtı Yaxın Şərqin ən böyük "ağıllı şəhər"i elan edilib.

Ərəb Parlamentinin spikeri Adil bin Əbdülrəhman Əl-Asumi "Ən uğurlu ərəb layihəsi" və "Ən böyük "ağıllı şəhər" mükafatlarını Misir parlamentinin sədri Hənəfi əl-Cəbaliyə təqdim edib.

Konfransda yeni inzibati paytaxt haqqında məlumat verilib. Vurğulanıb ki, Qahirə ilə Süveyş arasında yerləşən bu möhtəşəm şəhərdə 34 inzibati bina, həmçinin 6,5 milyon nəfər üçün yaşayış binalarının tikintisi davam edir.

Ərəb Parlamenti Birləşmiş Ərəb Əmirliklərinin "Hope Probe" Mars missiyası və Səudiyyə Ərəbistanının "Yaşıl Yaxın Şərq" (NEOM) layihələrini də 2021-ci ilin ən uğurlu layihələri elan edib.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Mart - 2022)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:55 | 07: 15 | 12:53 | 16:48 | 18:46 | 19:46 |
| 2 | 05:54 | 07:14 | 12:53 | 16:49 | 18:47 | 19:47 |
| 3 | 05:52 | 07:12 | 12:53 | 16:50 | 18:48 | 19:48 |
| 4 | 05:51 | 07:11 | 12:53 | 16:51 | 18:49 | 19:49 |
| 5 | 05:49 | 07:09 | 12:52 | 16:52 | 18:50 | 19:50 |
| 6 | 05:48 | 07:07 | 12:52 | 16:53 | 18:51 | 19:52 |
| 7 | 05:46 | 07:06 | 12:52 | 16:54 | 18:52 | 19:53 |
| 8 | 05:45 | 07:04 | 12:52 | 16:54 | 18:53 | 19:54 |
| 9 | 05:43 | 07:03 | 12:51 | 16:55 | 18:54 | 19:55 |
| 10 | 05:41 | 07:01 | 12:51 | 16:56 | 18:55 | 19:56 |
| 11 | 05:40 | 07:00 | 12:51 | 16:57 | 18:56 | 19:57 |
| 12 | 05:38 | 06:58 | 12:51 | 16:58 | 18:57 | 19:58 |
| 13 | 05:36 | 06:56 | 12:50 | 16:59 | 18:59 | 19:59 |
| 14 | 05:35 | 06:55 | 12:50 | 17:00 | 19:00 | 20:00 |
| 15 | 05:33 | 06:53 | 12:50 | 17:01 | 19:01 | 20:01 |
| 16 | 05:31 | 06:51 | 12:49 | 17:01 | 19:02 | 20:03 |
| 17 | 05:30 | 06:50 | 12:49 | 17:02 | 19:03 | 20:04 |
| 18 | 05:28 | 06:48 | 12:49 | 17:03 | 19:04 | 20:05 |
| 19 | 05:26 | 06:47 | 12:49 | 17:04 | 19:05 | 20:06 |
| 20 | 05:25 | 06:45 | 12:48 | 17:05 | 19:06 | 20:07 |
| 21 | 05:23 | 06:43 | 12:48 | 17:05 | 19:07 | 20:08 |
| 22 | 05:21 | 06:42 | 12:48 | 17:06 | 19:08 | 20:09 |
| 23 | 05:19 | 06:40 | 12:47 | 17:07 | 19:09 | 20:11 |
| 24 | 05:18 | 06:38 | 12:47 | 17:08 | 19:10 | 20:12 |
| 25 | 05:16 | 06:37 | 12:47 | 17:09 | 19:11 | 20:13 |
| 26 | 05:14 | 06:35 | 12:47 | 17:09 | 19:12 | 20:14 |
| 27 | 05:12 | 06:33 | 12:46 | 17:10 | 19:13 | 20:15 |
| 28 | 05:10 | 06:32 | 12:46 | 17:11 | 19:14 | 20:16 |
| 29 | 05:09 | 06:30 | 12:46 | 17:11 | 19:15 | 20:18 |
| 30 | 05:07 | 06:29 | 12:45 | 17:12 | 19:17 | 20:19 |
| 31 | 05:05 | 06:27 | 12:45 | 17:13 | 19:18 | 20:20 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## TERRAKOTA ORDUSUNUN 20 YENİ DÖYÜŞÇÜSÜ TAPILIB

"artinvestment" saytı xəbər verir ki, arxeoloqlar Çinin birinci imperatorunun axirət dünyasında mühafizəsi üçün yaradılmış 20 yeni terrakota döyüşçüsü aşkar ediblər (terrakota – küpələr, qab-qacaq və kərpic hazırlamaq üçün nəzərdə tutulan yandırılmış qırmızı gildir). Tapıntılar arasında generalın və orta rütbəli ordu zabitinin heykəlləri xüsusilə seçilir. Aşkar edilmiş məxfi məqbərənin ümumi sahəsi 14.060 kvadratmetrdən çoxdur. Qazıntı işləri başa çatandan sonra daha bir neçə min tapıntının aşkar ediləcəyi gözlənilir.

Hesab edilir ki, Terrakota ordusu əvvəlcə imperator Sin Şixuandinin mavzoleyindən təxminən 1,5 kilometr şimal-şərqdə üç "çuxur" arasında paylanmış 8.000 döyüşçüdən ibarət olub. Bu günə qədər arxeoloqlar təxminən 2.000 heykəl aşkar ediblər.

## TUTANXAMONUN "KOSMİK XƏNCƏRİNİN" SİRRİ AÇILIB

Arxeoloqlar firon Tutanxamonun sərdabəsindəki xəncərin Qədim Misirin sərhədləri xaricində meteorit poladından hazırlandığını müəyyən edib.

"The Sun" qəzetinin xəbərinə görə, bu kəşf xəncərin digər qədim dövlət tərəfindən Tutanxamonun babasına hədiyyə olaraq göndərilməsi versiyasını təsdiqləyib. Belə ki, xəncərin o dövrdə qədim misirlilərin işləməyi bacarmadığı meteorit poladından hazırlandığı müəyyənləşib.

Yaponiyanın "Tiba" Texnologiya İnstitutunun elmi qrupu tərəfindən aparılan təhlillər poladın müsbət 950 dərəcədən aşağı temperaturda əridildiyini və çox güman ki, Misirdən kənarda, Anadoluda hazırlandığını göstərib.

Qeyd edək ki, Misirin 18-ci sülaləsinin fironu Tutanxamon eramızdan əvvəl 1332-1323-cü illərdə ölkəni idarə edib. 1922-ci ildə sərdabədə aşkarlanmış, eramızdan əvvəl 14-cü əsrə aid olan artefakt fironun mumiyasının bud hissəsində tapılmışdı.

### Yadigar söz

**Blez Paskal**

*frazsız yazıçısı və filosofu*

*Əxlaqı tərbiyə edən ən nadir kitab vicdandır. Onunla tez-tez məsləhətləşmək lazımdır.*


**Baş redaktor**
**Səyyad ARAN**

**Redaksiya şurası:**
**Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV**
**Raman DADAŞOV** (Məsul katib).

**Ünvan:** AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
**Telefon:** 505 78 16; 505 78 19
**E-mail:** redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**

Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

**Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində** yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894